HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№17 (607) ■ 9 may 2012 www.vergiler.az Qiyməti: 40 qəp.

# Heydər Əliyev fenomeni: Azərbaycan tarixi və müasirlik



Tarix və şəxsiyyət, şəxsiyyətin tarixdəki rolu barədə fikirlər, mülahizələr və mübahisələr heç vaxt gündəmdən düşməyib. Bu kontekstdə baş verən hadisələrə münasibət, adətən, birmənalı olmur. Amma onu birmənalı şəkildə deyə bilərik ki, hər bir xalqın, millətin taleyində silinməz izlər buraxmış, onun gələcək yolunun müəyyən edilməsində əvəzsiz rol oynamış şəxsiyyətlər həmin millətin tarixinin yaradıcısı kimi unudulmur, tarixlə bərabər yaşayırlar.

Əgər Türkiyənin tarixində Mustafa Kamal Atatürk, Fransanın tarixində Şarl de Qoll, Hindistanın tarixində Mahatma Qandi, Misirin tarixində Camal Əbdül Nasir, Almaniyanın tarixində Konrad Adenauer, Amerikanın tarixində Corc Vaşinqton varsa və həmin ölkələrin xalqları onları dövlətlərinin xilaskarı sayırlarsa, Azərbaycan xalqı da ümummilli lider Heydər Əliyevi özünün xilaskarı hesab edir və onunla qürur duyur.

Bu baxımdan, respublikamızın Prezidenti möhtərəm İlham Əliyevin «Heydər Əliyev müasir Azərbaycanın memarıdır» deyimində ifadə etdiyi fikir xalqımız üçün olduqca qiymətli bir tarixi mərhələni ehtiva edir: müasir Azərbaycan dövlətinin formalaşmasının və möhkəmlənməsinin yeni tarixi mərhələsi məhz 1969-cu ildən başlayır. Tarixin çətin sınaqlarını keçən və mövcudluğunu qoruyan, müstəqilliyinin əbədiliyinə nail olan Azərbaycan dövləti XX əsrdən XXI əsrə ilahi güclə dərin zəkanı özündə müdrikcəsinə birləşdirən böyük dühə Heydər Əliyevin rəhbərliyi ilə daxil oldu.

Heydər Əliyev Azərbaycanın bundan sonrakı yaşam və inkişaf konturlarını, canından çox sevdiyi xalqının gələcək xoşbəxt taleyini müəyyənləşdirdi. Uzaqgörən rəhbər gələcək nəsillərə Azərbaycan adlı elə bir möhtəşəm abidə ucaltdı ki, hamımız üçün - bu günümüz, sabahımız üçün qürur, fəxr məbədimizə çevrildi. Bu abidənin möhkəmliyi, ucalığı və müqəddəsliyi onu deməyə əsas verir ki, hələ uzun on illər, əsrlər ərzində xalqımız qorxusuz, firavan və xoşbəxt bir həyat yaşayacaqdır. Bu firavan, xoşbəxt həyat üçün Azərbaycan xalqı, gələcək nəsillər Heydər Əliyev şəxsiyyətinə minnətdar olacaqdır.

İnkaredilməz bir həqiqətdir ki, 1969-cu ildən 2003-cü ilədək olan 34 illik bir dövr Heydər Əliyevin rəhbərliyi ilə xalqımızın sosial-iqtisadi tərəqqisi, milli oyanışı, mədəni intibahı, azadlıq hərəkatı mərhələsindən keçərək müstəqillik əldə etməsi, suverenliyini və milli birliyini təmin edərək qorumaq imkanlarına malik olması baxımından əlamətdar tarixi dövr kimi qəbul edilmişdir. Sözün əsl mənasında, həmin 34 il xalqımızın ümummilli liderinin parlaq iradəsi və zəngin fəaliyyəti ilə tariximizə «Heydər Əliyev erası» kimi həkk olunmuşdur.

Ümummilli liderimizin Vətəninə, xalqına bağlılığını, fəaliyyətini bütünlüklə millətinin xoşbəxt gələcəyinə həsr etməsini keçmiş sovet rəhbərləri də hər zaman bilir, duyur və hətta bəziləri bunu etiraf etməkdən belə çəkinmirdilər. Məsələn, hamımıza yaxşı tanış olan, keçmiş sovet rəhbərlərindən N.Baybakov deyirdi: «Mən inanmıram ki, Azərbaycanı Heydər Əliyev qədər sevən ikinci bir azərbaycanlı olsun». Bu fikirlər ulu öndərin nə qədər böyük, əsl AZƏRBAYCANLI olduğuna sadə bir nümunədir. Bu və qeyd etmədiyimiz çoxlu sayda belə fikirlər Heydər Əliyevin həyat amalını, xalqına, millətinə necə bağlı olduğunu bir daha sübut edir. Əslində, nə o böyük şəxsiyyətin, xalqını canından çox sevən liderin, nə də sözün həqiqi mənasında BÖYÜK OĞUL - HEYDƏR ƏLİYEV kimi dahi lider yetişdirmiş Azərbaycan xalqının belə sübutlara, faktlara ehtiyacı yoxdur. Çünki Azərbaycan xalqı və Heydər Əliyev şəxsiyyəti çoxdan birləşib, birgədir və bəlkə də bir məna daşıyır.

davamı 2-ci səhifədə ➔

rəsmi xronika

## Bakı gündən-günə gözəlləşir

### Azərbaycan Prezidenti İlham Əliyev Dənizkənarı Milli Parkın yeni tikilən hissəsinin açılışında iştirak etmişdir

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parkın yeni tikilən hissəsinin açılışında iştirak etmişlər. Azərbaycan Prezidenti və xanımı elektromobillərlə yeni bulvarın ərazisini gəzmiş, burada yaradılmış şəraitlə tanış olmuşlar. Dövlət başçısının Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzadılması ilə bağlı tapşırıqları əsasında şəhərimizin sahil boyuna xüsusi yaraşıq verən və ümumi sahəsi 20 hektar, uzunluğu 1,8 kilometr olan yeni bulvar tikilmişdir. Bu, Prezident İlham Əliyevin Azərbaycanın müasir simasının yaradılması istiqamətində həyata keçirdiyi tədbirlər silsiləsinin mühüm tərkib hissəsidir. Aparılan quruculuq və abadlıq işləri sayəsində paytaxt Bakı tədricən öz görkəmini dəyişmiş və dünyanın ən gözəl şəhərləri sırasında yerini möhkəmləndirmişdir.

Dövlət başçısına məlumat verilmişdir ki, üç növbədə aparılan yenidənqurma və abadlıq işləri nəticəsində ərazidə yaşıllıq zolağından avtomobil yolunadək uzanacaq daha bir xətt inşa olunmuşdur. Bu xətt bulvar ərazisində hərəkət edən avtomobillər, qatarlar, kiçik ölçülü gəzinti avtobusları üçün nəzərdə tutulmuşdur. Yeni ərazidə xüsusi xətt də salınmışdır ki, bu da velosiped sürənlərə maneəsiz hərəkət etmək imkanı verir. Ərazidə həm kölgəlik yaradan ağaclar, həm də xüsusi gözəlliyi olan nadir bitki nümunələri əkilmiş, müasir işıqlandırma sistemi qurulmuşdur.

Yaxın gələcəkdə burada istirahət obyektləri, attraksionlar da quraşdırılacaqdır. Bulvarda uzunluğu 450 metr olan estakada dənizin içərilərinə doğru daha 100 metr uzadılmışdır. Gələcəkdə isə bulvarın uzunluğu 25 kilometrə çatdırılaraq, Zığ və Şıx çimərliklərini birləşdirərək böyük bir istirahət zonasına çevriləcəkdir. Bulvarda taksi katerlər vasitəsilə Xəzərdə yerləşən adalara səyahət etmək də mümkün olacaqdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva şəhər əhalisinin və Bakıya gələn qonaqların istifadəsi üçün nəzərdə tutulan gəzinti gəmilərində yaradılan şəraitlə də tanış olmuşlar. Bildirilmişdir ki, Dənizkənarı Milli Parkın genişləndirilməsi çərçivəsində əhalinin Xəzər dənizində gəzintisi də diqqət mərkəzində saxlanılmış və bu məqsədlə paytaxta 3 yeni gəmi gətirilmişdir.

## Bakıda infrastruktur layihələri genişlənir

### Prezident İlham Əliyev Bakı-Ələt yolunun Dövlət Bayrağı Meydanına gedən 2-4 kilometrlik hissəsinin açılışında iştirak etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Bakı-Ələt yolunun Dövlət Bayrağı Meydanına gedən 2-4 kilometrlik hissəsinin açılışında iştirak etmişlər.

Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, 2,8 kilometr uzunluğu olan yolda hərəkət zolaqlarının eni 3,75 metrdir. Səkkizzolaqlı yolun üzərində 4 piyada keçidi də inşa olunmuşdur. Tikinti zamanı 614 min kubmetr torpaq işləri görülmüş yolun əhəmiyyətini artıran digər mühüm amil onun «Azneft» meydanından Dövlət Bayrağı Meydanına, oradan isə Bibiheybət məscidi istiqamətində avtomobillərin rahat hərəkətini təmin etməsidir.

# Azərbaycan «Eurovision-2012» müsabiqəsinə tam hazırdır

## *Mahnı müsabiqəsinin keçiriləcəyi «Baku Crystal Hall» istifadəyə verilmişdir*



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də «Eurovision-2012» mahnı müsabiqəsinin keçiriləcəyi «Baku Crystal Hall»un açılışında iştirak etmişlər. Azərbaycan Prezidentinə və xanımına «Baku Crystal Hall»da görülən işlər, eləcə də müsabiqəyə hazırlıqla bağlı ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. Kompleksdə gələcəkdə başqa beynəlxalq tədbirlərin keçirilməsi də mümkündür. «Baku Crystal Hall»un əhəmiyyətini artıran mühüm amillərdən biri də onun Dövlət Bayrağı Meydanı ətrafında yerləşməsidir.

«Baku Crystal Hall» Prezident İlham Əliyevin Bakı şəhərində müasir idman-konsert kompleksinin inşa edilməsi haqqında 2011-ci il iyulun 11-də imzaladığı sərəncama əsasən inşa olunmuşdur. Bu il yanvarın 15-də isə Avropa Yayım Birliyi müsabiqənin məhz «Crystal» sarayında keçirilməsi ilə bağlı qərar qəbul etmişdir.

Almaniyanın Düsseldorf şəhərində «Eurovision-2011» beynəlxalq mahnı müsabiqəsində 43 ölkə arasında möhtəşəm qələbə qazanan Azərbaycan 2012-ci ilin mayında bu yarışmanı Bakıda keçirmək hüququ qazanmışdır. Özlüyündə böyük mədəniyyət hadisəsi olan, lakin siyasi və iqtisadi əhəmiyyəti ilə daha çox önəm daşıyan bu hadisə göstərdi ki, Qərblə Şərqin kəsişməsində yerləşən Azərbaycan bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Bu uğurun əhəmiyyətini artıran əsas cəhətlərdən biri də Avropanın musiqi həyatında mühüm hadisə olan «Eurovision»nun tarixdə ilk dəfə Cənubi Qafqazda keçirilməsi ilə bağlıdır. «Eurovision»nu regiona gətirən Azərbaycan bu uğura müstəqil olduğu 20 il ərzində müsabiqəyə cəmi 4 dəfə qatılmaqla nail olmuşdur.

2 «Vergilər» mövzusunda olimpiada

3 Vergilər və rüsumlar büdcəyə elektron formada köçürülür

4 Azərbaycan Avropanın maliyyə bazarına daxil olur

5 Nağdsız hesablaşmalara keçmək zamanın tələbidir

# Heydər Əliyev fenomeni: Azərbaycan tarixi və müasirlik

← əvvəli 1-ci səhifədə

Lakin ulu öndərin qurub-yaratdığı, inkişaf relsləri üzərinə çıxardığı Azərbaycan keçmiş Sovetlər İttifaqı miqyasında gedən mərkəzdənqaçma, müstəqil dövlətlərin yaranması prosesləri və təbii ki, respublika daxilində yarıtmaz rəhbərlik, xalqdan uzaq düşən naşı, təcrübəsiz şəxslərin siyasi idarəetməni əldə etməsi səbəbindən, 1990-cı illərin əvvəllərində parçalanıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir vaxtda - 1993-cü ilin iyun günlərində başı hakimiyyət ehtiraslarına qarışmış, vəzifə uğrunda ölüm-dirim savaşı aparan hakimiyyət nümayəndələrindən problemlərə bir əlac olmayacağını görən xalqımız yenə də ən çətin, ağır anında böyük oğlu, dahi siyasətçi Heydər Əliyevə üz tutdu. Xalqın davamlı, ardıcıl və təkidli tələbi ilə ümummilli lider 1993-cü ilin 9 iyununda Naxçıvandan Bakıya gəldi. Ümidini yalnız Heydər Əliyev müdrikliyinə bağlamış xalq ulu öndəri böyük coşqu ilə, sevinclə qarşıladı. Baş verənlərlə yerindəcə maraqlanmaq, hər bir prosesi incəliyinə qədər öyrənmək keyfiyyətləri Heydər Əliyevi o dövrdə Gəncəyə getmək, həyatını riskə atmaq təhlükəsindən belə çəkindirə bilmədi. Bu işdə həm də xalqına qarşı böyük sevgi, məhəbbət həlledici rol oynamışdı. Təhlükəli iyun günlərində Gəncəyə səfər edən Heydər Əliyev xalqla təmasda olmaq, problemlərlə daha yaxından və dəqiqliklə tanışlıq imkanı qazandı və bir neçə gündən sonra xalqını üzləşdiyi fəlakətlərdən xilas etmək üçün ikinci dəfə siyasi hakimiyyətə gəlməyə razılıq verdi.

Əslində, 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevə dağılmış və viran olmuş Azərbaycan miras qalmışdı. Hər şey sıfırdan başlanılmalıydı. 1993-cü ilin Azərbaycanı həmin dövrdə «ölüm-qalım» dilemması qarşısındaydı, onun başı üzərindən «Domokl qılıncı» asılmışdı. Heydər Əliyev, ilk növbədə, Azərbaycanı dibi görünməyən dərin uçurumdan çəkib çıxarmalı, ona yeni nəfəs verməli idi. Bu işin məsuliyyəti, çətinliyi cəmiyyət üçün aktuallıq kəsb etmirdi. İnsanlar, sadəcə, ulu öndərin bütün problemləri çözəcəyinə inanırdılar. Xalq məhz bunu bildiyindən, israrla ulu öndərdən hakimiyyətə qayıtmağı tələb etmişdi. Həmin günlərdə bütün dünyanın gözü Azərbaycanda, daha doğrusu, Heydər Əliyevdə idi. Hər dəfə olduğu kimi, bu dəfə də Heydər Əliyev özünəməxsus müdrikliyi, siyasi iradəsi, fenomenal xarakteri sayəsində xalqımızı çətinliklərdən, düçar olduğu bəlalardan, dağılmaq, parçalanmaq, məhv olmaq, bir dövlət olaraq siyasi səhnədən silinib tarixə çevrilmək təhlükəsindən xilas etdi, onu siyasi sabitlik, sosial-iqtisadi inkişaf, sosial rifah relsləri üzərinə çıxardı.

Fəxrlə demək olar ki, artıq qorxulu, dəhşətli günlərimiz, çətinliklərimiz geridə qalıb. Dünya bu gün bizim iqtisadi inkişafımızı, ictimai-siyasi sabitliyimizi, xoşbəxt, firavan həyatımızı izləyir. Bu günlərimiz üçün biz - hər bir Azərbaycan vətəndaşı ulu öndər Heydər Əliyevə minnətdar olmalı, ümummilli lider tərəfindən əsası qoyulan və inamla deyə bilərik ki, çox uğurla bu siyasəti davam etdirən, Azərbaycanımızı xoşbəxt gələcəyə, firavan həyata aparan möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməliyik. Bu, bizim həm də ulu öndərin ölməz ruhu qarşısında müqəddəs borcumuzdur.

**Anar ƏLİYEV**

# «Vergilər» mövzusunda olimpiada

*Mayın 5-də Azərbaycan Dövlət İqtisad Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş «Vergilər» mövzusunda VI ümumrespublika olimpiadası keçirilmişdir. Ali məktəb tələbələri və magistrantlar arasında keçirilmiş olimpiadada 15 ali məktəbdən 256 tələbə və magistrant iştirak etmişdir.*

Tədbirdə Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru, professor Daməd Bağırov, vergilər nazirinin müşaviri Ələkbər Məmmədov, Tədris Mərkəzinin rəisi Aysu Məmmədova çıxış etmişlər. Ə.Məmmədov Vergilər Nazirliyi tərəfindən aparılan vergi siyasətinin başlıca prinsiplərindən birinin cəmiyyətdə vergi mədəniyyətinin yüksəldilməsi, vergilərlə bağlı biliklərin təbliği olduğunu bildirmişdir. Bu sahədə ölkədə aparılan vergi siyasətinə uyğun olaraq gənc nəslin, o cümlədən orta və ali təhsil müəssisələrinin şagird və tələbələrinin vergilər haqqında biliklərinin artırılması və vergi xidməti üçün potensial kadrların hazırlanması istiqamətində Vergilər Nazirliyi təhsil müəssisələri ilə səmərəli əməkdaşlıq edir: «Azərbaycan Dövlət İqtisad Universitetində «Vergi və vergiqoyma» kafedrası fəaliyyət göstərir. Vergilər Nazirliyi tərəfindən vergilərin tədrisi ilə əlaqədar orta məktəb şagirdləri üçün dərs vəsaitləri və ali məktəb tələbələri üçün bir neçə dərslik nəşr edilmiş, ümumtəhsil məktəblərində vergilərə dair 54 metodiki kabinet yaradılmışdır. Vergilər Nazirliyi tərəfindən Təhsil Nazirliyinin dəstəyilə yeni bir layihəyə - «Vergi dostları» şəbəkəsinin yaradılmasına başlanmış, respublikanın ucqar kənd və qəsəbə məktəblərinin müəllimlərinin köməyilə həmin ərazilərdə məlumatlandırma və maarifləndirmə işi aparılır. Hər il «Vergi uşaqların gözü ilə» uşaq rəsm müsabiqəsi, orta və ali məktəblərdə vergilərə aid bilik yarışları keçirilir. Bu yarışlarda iştirak etmək gənclər üçün vergi biliklərinə yiyələnmək, həmçinin gələcəkdə bu sahədə peşəkar kadr kimi formalaşmaq və vergi xidməti orqanlarında işləmək fürsəti verir».

Test üsulu ilə təşkil olunmuş olimpiada zamanı iştirakçılar iki saat ərzində Vergilər Nazirliyinin Tədris Mərkəzində müvafiq test bazası əsasında hazırlanmış sualları cavablandırmışlar. Nəticələr iştirakçı ali məktəblərin təmsilçilərindən ibarət münsiflər heyətinin iştirakı ilə xüsusi kompüter proqramları vasitəsilə qiymətləndirilmişdir.

Bakalavr pilləsində təhsil alan tələbələr arasında birinci yeri Babək Quliyev, ikinci yeri Nəsimi Yusifov, üçüncü yeri Tofiq Zeynalzadə (hər üçü Azərbaycan Universiteti) tutmuşdur. Magistrantlar arasında isə Nurlan Nəcəfov birinci yerə, Şahin Musabəyov ikinci yerə, Emin Mancanov (hər üçü ADİU) üçüncü yerə çıxmışdır. Qaliblər və onların müəllimləri diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

Babək Quliyev (bakalavr pilləsi üzrə birinci yer, Azərbaycan Universiteti): «Olimpiadada ilk dəfə iştirak edirdim. Düşünürəm ki, ilk cəhddə birinci yer tutmaq böyük qələbədir. Buna çox sevinirəm. Bütövlükdə olimpiada tam obyektiv və şəffaf keçirildi. Xüsusilə, olimpiadanın onlayn rejimdə keçirilməsi bizə vaxta qənaət edərək sualları sürətlə cavablandırmağa imkan yaratdı. Yaradılan bu əlverişli şəraitə görə Vergilər Nazirliyinə, xüsusilə üzərimdə əməyi olan müəllimim Tofiq Hümbətova dərin təşəkkürümü bildirirəm».

Nəsimi Yusifov (bakalavr pilləsi üzrə ikinci yer, Azərbaycan Universiteti): «Vergilər mövzusunda keçirilən bu cür bilik yarışları gənclərin vergilər haqqında bilik bazasının zənginləşməsinə xidmət edir. Olimpiada, həmçinin, tələbələrdə gələcəkdə vergi orqanlarına işə qəbul olunmaq üçün həvəs və stimul yaradır. Gənclərə göstərilən diqqət və qayğıya görə Vergilər Nazirliyinə təşəkkür edirəm».

Nurlan Nəcəfov (magistr pilləsi üzrə birinci yer, ADİU): «Olimpiada həm də universitetlərin bilik yarışmasıdır - burada müxtəlif ali təhsil ocaqlarının tələbələri iştirak edirlər. Buna görə də olimpiadada təhsil aldığım ali məktəbin adını birincilik səviyyəsinə qaldırdığım üçün qürur hissi duyuram».

**Arzu İBRAHİMOVA**



# Qəlblərdə yaşayan şəhər...

*«Şuşasız, Ağdamsız, ümumiyyətlə, Qarabağsız Azərbaycan yoxdur».*

*Heydər Əliyev*

***Şuşanın dağları başı dumanlı,***
***Dərdindən ölməyə çoxdur gümanlı...***

Ustad Xan Şuşinskinin ifasında səslənən bu mahnını eşidəndə istər-istəməz adamın ürəyinin başı göynəyir. Çünki əsası Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulan Şuşanın başını doğrudan da dumanlar alıb. Şuşa 1992-ci il mayın 8-də erməni qəsbkarları tərəfindən işğal olunub. Azərbaycan musiqisinin beşiyi sayılan Şuşanın onlarca tarixi abidələri, o cümlədən Pənahəli xanın sarayı, Cümə məscidi, Aşağı «Gövhər ağa məscidi», Xurşud Banu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi yağmalanıb. Hətta Üzeyir Hacıbəyov, Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəlləri belə düşmən gülləsinə tuş gəlib... Lakin böyükdən-kiçiyə hamı inanır ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında əldə olunan iqtisadi, siyasi, diplomatik uğurlar nəticəsində ən yaxın vaxtlarda Şuşanın başının üstündəki qara duman çəkiləcək, Qarabağ savaşında yüzlərlə şəhid verən Şuşa şəhəri erməni işğalından azad ediləcək, elindən-obasından didərgin düşən vətəndaşlarımız yenidən öz yurdlarına, doğma Qarabağımıza qayıdacaqdır. Beləcə, Şuşamız, Ağdamımız, Füzulimiz, bütövlükdə cənnət guşəsi Qarabagımız köhnə yaralara məlhəm qoya-qoya yenə nəğməli-sözlü ömrünü yaşayacaq, yenə havalanacaq «Xanın səsi», «Qarabağın şikəstəsi...»

Qarabağ təbiətin bütün gözəlliklərini özündə əks etdirən cənnət misalı bir diyardır və bu diyarın ən səfalı guşəsi Şuşa şəhəridir. Hər daşı, hər qarış torpağı xalqımızın həyatında baş vermiş bir çox tarixi hadisələrin şahidi olan bu şəhər görənləri valeh edirdi. Qarabağın, onun döyünən ürəyi Şuşanın gözəllikləri haqda dahi fransız yazıçısı Aleksandr Dümadan başlamış dövrümüzün bir çox tədqiqatçılarına qədər çoxlu sayda əsərlər yaranıb, cild-cild kitablar yazılıb. Şuşa təkcə cənnət məkanı deyil, həm də hərbi strateji əhəmiyyət kəsb edən bir alınmazlıq, basılmazlıq qalası olmuşdur. Şuşa aydınlıq, saflıq, ucalıq mücəssəməsi, düşmənlərə, yadellilərə göz dağıydı.

***Tariximiz, qan yaddaşımız...***

Əsrarəngiz Şuşa şəhərinin binasını Pənahəli xan Cavanşir qoymuşdur. 1747-ci ildə Nadir şah öldükdən sonra Pənahəli bəy xan elan edilir və Qarabağ xanlığını düşmən hücumlarından qorumaq məqsədilə alınmaz bir qala tikdirməyi qərara alır. 1750-ci ildə Qarabağın ən səfalı guşəsində, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yeni qalanın bünövrəsi qoyulur. Yerli əhali yeni salınmış şəhəri Pənahəli xanın şərəfinə «Pənahabad» adlandırır. Şiş uclu dağlar əhatəsində yerləşən Pənahabad sonralar «Şişə» və tədricən Şuşa adlandırılmağa başlanır. Tarixçilər Şuşanın bir şəhər kimi formalaşmasını şərti olaraq üç mərhələyə bölürlər: birinci mərhələ çox qeyri-sabit şəraitdə - 1763-cü ilə qədər davam etmiş, tikinti işləri bir qədər tələsik aparılmışdı. İbrahim Xəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edən ikinci mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olmuşdur. Üçüncü mərhələ bütövlükdə XIX əsri əhatə etmiş və əslində, bununla Şuşanın formalaşması başa çatmışdır.

***Xəyanət və işğal...***

Çoxsaylı xəyanətlərin, xüsusilə bədxah qonşumuzun fitnəkarlığının nəticəsi kimi Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olmuşdur. 1905-1907-ci illərdə Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qalmış və yandırılmışdır. 1920-ci ildə şəhərin xeyli hissəsi ermənilər tərəfindən dağıdılmışdır. Üçüncü dəfə - 1992-ci ilin mayında isə ermənilər bu şəhəri tamamilə işğal etməyə nail olmuşlar.

***Şuşa bu gün də yaşayır...***

Şuşanın işğal günü Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılmış faciə, hər bir azərbaycanlı üçün ağır bir dərddir.



Şuşa Azərbaycanın bəlkə də yeganə bölgəsidir ki, bu qədər tarixi şəxsiyyətlər, incəsənət xadimləri yetişdirib. Azərbaycan mədəniyyətinə dühalar, tarixi şəxsiyyətlər, incəsənət xadimləri bəxş etmiş bu şəhəri özünün adına çıxmağa çalışan hər hansı bir millətin arzusu ürəyində qalacaqdır. Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyev işğal altında olan torpaqlarımızın azad edilməsi üçün ardıcıl mübarizə aparmış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün həmin siyasəti daha da əzmkarlıqla davam etdirir. Azərbaycan Prezidenti ən yüksək tribunadan dəfələrlə birmənalı şəkildə təkrar edib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmamış heç bir razılaşmadan söhbət gedə bilməz. Bu günlərdə Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasında çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səsləndirdiyi - Azərbaycan bir qarış torpağının da işğal altında qalması ilə barışmayacaq, - fikri hər bir azərbaycanlı üçün gələcək hədəfimizi müəyyən edir.

**Anar ƏLİYEV**

# Şuşa Rayon Vergilər Şöbəsində anma mərasimi

*«Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir».*

*Heydər Əliyev*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı «Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında» 9 aprel 2012-ci il tarixli sərəncama əsasən, respublikamızda və ölkəmizin hüdudlarından kənarda Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü ilə əlaqədar anma mərasimlərinin keçirilməsi nəzərdə tutulub. Sərəncamın icrası ilə bağlı idarə və təşkilatlar tərəfindən bir sıra tədbirlər həyata keçirilməkdədir.

Şuşa Rayon Vergilər Şöbəsində keçirilmiş anma mərasiminin iştirakçıları şəhərin müdafiəsi zamanı şəhid olmuş soydaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Tədbirdə çıxış edən Şuşa Rayon Vergilər Şöbəsinin rəisi Mübariz Fərzəliyev dövlətin qaçqın və məcburi köçkünlərə diqqət və qayğısını vurğulayaraq qeyd etdi ki, doğma ocaqlarından didərgin salınmış bir milyonadək qaçqın və məcburi köçkün soydaşlarımızın bütün qayğıları, problemləri ilə yaxından tanış olan xalqımızın ümummilli lideri Heydər Əliyev onların problemlərini daim diqqət mərkəzində saxlayırdı. Qaçqınların sosial-məişət problemlərinin həll olunması, mənzil şəraitinin yaxşılaşdırılması, öz yurdlarına qaytarılması ulu öndərin fəaliyyətində əsas yer tuturdu. Ümummilli liderimiz Heydər Əliyevin ən böyük arzusu zəbt olunmuş torpaqlarımızın işğaldan azad edilməsi və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına nail olmaq idi. «Şuşa bizim milli mənliyimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir», - deyən Heydər Əliyev şuşalılara həmişə yüksək qayğı göstərib, onların sosial şəraitinin yaxşılaşdırılması üçün lazım olan bütün tədbirləri görüb.

Tədbirdə qeyd olunmuşdur ki, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin işğal altındakı torpaqlarımızın azad olunması ilə bağlı apardığı qətiyyətli siyasət nəticəsində şuşalılar öz yurd-yuvalarına dönəcəklərinə dərin inam bəsləyirlər. Dövlət başçımızın Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında 9 aprel 2012-ci il tarixli sərəncamı şuşalılara olan yüksək diqqətin təzahürüdür. Prezident İlham Əliyevin «Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir», - fikri şuşalılar tərəfindən milli qürur hissi ilə qarşılanmışdır.

Mərasimdə xüsusi vurğulanmışdır ki, Şuşa düşmən işğalı altında olsa da, ölkəmizin iqtisadi, sosial və mədəni həyatından təcrid edilməmişdir. Digər dövlət qurumları kimi, Şuşa Rayon Vergilər Şöbəsi də öz üzərinə düşən tarixi vəzifənin öhdəsindən ləyaqətlə gəlir. Ölkəmizdə həyata keçirilən çevik vergi siyasəti, vergi sistemində aparılan islahatlar şöbənin fəaliyyətinə də hərəkətverici təsir göstərir. Elektron xidmətlərin tətbiqi ilə əlaqədar vergi ödəyiciləri arasında aparılan maarifləndirmə tədbirləri əhəmiyyətini göstərməkdədir. Hazırda şöbəyə təqdim olunan vergi bəyannamələri və hesabatlarının elektron formada ödənilməsi tam təmin edilib. Şöbə tərəfindən cari ilin birinci rübü ərzində 142 vergi ödəyicisinə 396 xidmət göstərilib, qanunvericiliyin təkmilləşdirilməsi, elektron bəyannamələrin təqdim olunması qaydaları, vergi mədəniyyəti və digər məsələlərlə bağlı ödəyicilərin sualları cavablandırılıb.

Şuşa Rayon Vergilər Şöbəsində qeydiyyatda olan ödəyicilər tərəfindən vergi daxilolmalarının həcmində əhəmiyyətli artım baş verməkdədir. 2012-ci ilin birinci rübü ərzində şöbə tərəfindən proqnoz-tapşırıqlara 152,5% əməl olunub. Ölkəmizdə sahibkarlıq mühitinin yaxşılaşdırılması, bütün regionlarda olduğu kimi, Şuşa rayonunda da yeni fəaliyyətə başlayan sahibkarların sayının artmasına səbəb olub. Cari ilin ilk rübündə 1 hüquqi, 102 fiziki şəxs olmaqla, 103 vergi ödəyicisi qeydiyyata alınıb.

**Elbrus CƏFƏRLİ**

# Vergilər və rüsumlar büdcəyə elektron formada köçürülür

## *Bunun üçün iki metoddan istifadə edilir*

***Dövlət orqanları tərəfindən əhaliyə elektron xidmətlərin göstərilməsi çevik və səmərəli idarəetmənin təmin edilməsi, şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün müstəsna əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanından irəli gələn vəzifələr işığında Vergilər Nazirliyi tərəfindən vətəndaş cəmiyyətinə və biznes strukturlarına göstərilən elektron xidmətlərin çeşidinin və həcminin artırılması sahəsində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Bunlardan biri də Vergilər Nazirliyi ilə Mərkəzi Bankın birgə həyata keçirdikləri vergi və rüsumların elektron ödəniş sisteminin yaradılması layihəsidir.***

Hazırda həmin layihə üzrə bütün texniki işlər başa çatdırılmış, sistem aprel ayının 11-dən istifadəyə verilmişdir. Həmin tarixdən bu günə kimi 25 minə yaxın elektron ödəniş həyata keçirilmişdir ki, bunun da məbləği 8 milyon 500 min manatdan çox təşkil etmişdir. Artıq vergiləri, dövlət rüsumlarını, dövlət torpaqlarının icarə haqqını, maliyyə sanksiyalarını və inzibati cərimələri dövlət büdcəsinə elektron qaydada ödəmək mümkündür.

Bunun üçün iki üsuldan istifadə etmək olar. Birincisi, Vergilər Nazirliyinin «www.taxes.gov.az» internet səhifəsinin «E-xidmətlər» keçidini seçərək «İnternet Vergi İdarəsi»ndə (www.e-taxes.gov.az) «Giriş» düyməsini basmaqla «Sistemə giriş səhifəsi»ndə öz istifadəçi kodunu, parol və şifrənizi daxil edir, (sistemə daxil olmaq üçün «e-İmza» kartından da istifadə etmək olar) «Bölmə» menyusunda «Onlayn Kargüzarlıq & e-VHF» haşiyəsini seçib həmin bölməyə daxil olursunuz.

İkincisi üsul VÖEN-nizi «www.apus.az» saytına daxil etməklə plastik katrtınızdakı hesabdan elektron qaydada ödəniş edə bilərsiniz.

Elektron ödəniş Vergilər Nazirliyinin «İnternet Vergi İdarəsi» portalı üzərindən aparıldıqda, məlumat bazasına əsasən, vergi ödəyicisinin mükəlləf olduğu tədiyyələrin təsnifat kodları və büdcəyə borcları barədə məlumat ekrana çıxarılır. Elektron ödəniş Mərkəzi Bankın saytı üzərindən aparıldıqda isə vergi ödəyicilərinə büdcəyə olan borcları barədə məlumat verilmir. Bu halda ödəyici bütün zəruri məlumatları özü müəyyənləşdirərək sistemə daxil edir. Elektron ödənişin aparılması başa çatdıqdan sonra bu barədə məlumat 30-40 saniyə ərzində Vergilər Nazirliyinə ötürülür. Vergi ödəyicisi ödəmənin nəticəsi barədə məlumatı çap edə və ya KÖMİS-ə qayıdıb həmin məlumatları öz «e-mail» ünvanına göndərə bilər.

Vergilərin elektron formada ödənilməsinə nail olunması Vergilər Nazirliyinin ölkədə nağdsız ödənişləri stimullaşdırmaq məqsədilə atdığı mühüm addımlardandır. Vergi və rüsumların elektron ödənişi sisteminin tətbiqi ölkəmizdə «Elektron hökumət» quruculuğuna mühüm töhfə olmaqla yanaşı, vergi ödəyicilərinə vaxta və maddi vəsaitə qənaət etməyə imkan verəcək. Bu yenilik həm də vergi orqanlarına vergitutma bazasını daha dəqiq müəyyən etməyə, vergidən yayınma hallarının həcmini minimuma endirməyə, ölkədə nağd dövriyyənin azalmasına şərait yaradacaq.

Vergi, rüsum, cərimə və icarə haqlarının Milli Ödəniş Sisteminin bütün ölkəni əhatə edən geniş infrastrukturu vasitəsilə toplanılmasının təmin edilməsi məqsədilə KÖMİS sistemində Hökumət Ödənişləri Portalının yaradılması istiqamətində Mərkəzi Bank tərəfindən digər dövlət qurumları, xüsusən Vergilər Nazirliyi ilə intensiv iş aparılır. Hazırda mərkəzləşdirilmiş xəzinə hesabı ilə iş rejiminə keçmiş Bakı, Sumqayıt və Gəncə şəhərləri, həmçinin Abşeron və Xaçmaz rayonları üzrə vergi ödəyiciləri haqqında məlumatlar mərkəzi informasiya bazasına yüklənmişdir.

Növbəti mərhələdə Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və digər hökumət qurumlarının daxili informasiya sistemləri Hökumət Ödənişləri Portalına inteqrasiya olunacaqdır.

Yeni ödəniş üsuluna keçilməsinə vergi ödəyicilərinin münasibəti də müsbətdir.

***«Dalğa-94» MMC-nin rəhbəri Əliyar Əliyev:*** *«Vergilər Nazirliyinin vergi ödəyicilərinin istifadəsinə verdiyi elektron xidmətlər bizim işimizi yüngülləşdirməyə xidmət edir. Yeni ödəniş üsulu - vergilərin elektron formada ödənilməsi ödəyicilərə vaxta qənaət etməyə, vergi borclarını vergi orqanına getmədən ödəməyə imkan verəcək».*

***İdeal Tibb Mərkəzinin rəhbəri Aytən Quliyeva:*** *«Vergilərin və digər rüsumların elektron formada ödənilməsini təqdirəlayiq hesab edirəm. Bunun digər üstünlükləri ilə yanaşı, həm də əlavə vəsait itkisinin qarşısının alınmasına böyük faydası olacaq».*

**Arzu İBRAHİMOVA**




# Qeyri-neft sənayesinin sürətli inkişafı vergitutma bazasını genişləndirir

*Modernləşmə istiqamətində davamlı tədbirlər həyata keçirən Azərbaycanın son illərdə başlıca hədəf olaraq müəyyənləşdirdiyi əsas məqsədlərdən biri də iqtisadiyyatın şaxələndirilməsidir. Ölkənin ümumi daxili məhsulunun strukturunda, büdcə gəlirlərinin formalaşmasında və vergi daxilolmalarında təbii ehtiyatlar amilinin xüsusi çəkisinin azaldılması istiqamətində həyata keçirilən səmərəli tədbirlər də məhz bu məqsəddən irəli gəlir.*

Rəqabətədavamlı sənaye məhsulları istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılmasının təşviqi qeyri-neft sektorunun inkişafına dəstək tədbirlərinin əsasını təşkil edir. Uzunmüddətli perspektivdə iqtisadiyyatın davamlı və taraz inkişafına hesablanan bu iqtisadi siyasət 2012-ci ilin ilk rübündə sənayeləşmə sahəsində də mühüm irəliləyişlərə zəmin yaradıb. Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında açıqlanan statistik göstəricilər bunu bir daha təsdiqləyir. 2012-ci ilin birinci rübündə sənayedə fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən 9,4 milyard manatlıq məhsul istehsal olunub və xidmətlər göstərilib.

Ölkənin sənaye potensialının səmərəli realizəsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində xüsusən də qeyri-neft sənaye bölməsində istehsalın həcmi artaraq 16,5%-ə çatıb ki, bu da müstəqillik dövrünün rekord göstəricisi sayılır. 2011-ci ilin yekunlarına görə, qeyri-neft sənayesində artım dinamikası kifayət qədər yüksək - 11,1% olmuşdu.

Ekspertlərin fikrincə, qeyri-neft sənayesinin artımı, əsasən, ölkədə güclü sənaye potensialının inkişafına stimul yaradan zəngin xammal bazasının mövcudluğu və nəhəng sənaye kompleksləri infrastrukturları ilə bağlıdır. Bakı, Sumqayıt və Gəncə şəhərlərinin sənayeləşmənin mərkəzi rayonlarına çevrilməsinə baxmayaraq, bölgələrdəki xammal infrastrukturunda başlıca rol oynayan Daşkəsən, Gədəbəy, Naxçıvan, Mingəçevirin sənaye marşrutunun bazası olması danılmazdır.

Ümumilikdə, cari ilin ilk rübündə sənaye məhsulunun 78,3%-i mədənçıxarma bölməsində, 15,9%-i emal bölməsində, 5,3%-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0,5%-i isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunub. Özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 82,5%-ni təşkil edib, ümumi istehsalın 92,5%-i sənaye mallarının (əmtəələrin), 7,5%-i isə sənaye xarakterli xidmətlərin istehsalı hesabına yaradılıb. 2012-ci ilin mart ayında sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatlarının qalıqları 7,5 milyon manat artaraq aprel ayının əvvəlinə 289,7 milyon manat təşkil edib.

Sənayeləşmə istiqamətində ən mühüm addım isə son illərdə ölkədə texnoparkların yaradılmasıdır. Energetika sənayesinin inkişafı, o cümlədən alternativ enerji mənbələrindən istifadənin sürətləndirilməsi və bu sahədə yeni istehsal obyektlərinin yaradılması üzrə də zəruri işlər görülür. Mütəxəssislərin fikrincə, Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı iqtisadiyyatın modernləşməsini, innovativ iqtisadiyyatın formalaşmasını, sahibkarlığın inkişafını sürətləndirəcək, idxaldan asılılığı azaltmaqla qeyri-neft ixracını artıracaq, əhalinin məşğulluğunun artırılmasında önəmli rol oynayacaq. Cari ilin ilk rübündə Sumqayıtda «Azgüntex», Ağır Maşınqayırma zavodlarının istifadəyə verilməsi, habelə Yüksək Texnologiyalar Parkının yaradılması istiqamətində atılan addımlar sənayeləşmə sahəsində effektiv tədbirlərdən sayılır.

Ümumilikdə, iqtisadi tərəqqi prosesinin keyfiyyətcə yeni mərhələsində qeyri-neft sənayesinin inkişafı həm də ölkədəki əlverişli biznes və investisiya mühiti ilə şərtlənir. Qeyri-sənaye sektorunda iri müəssisələrin işə salınması həm də iri vergi ödəyicilərinin sayının artması, vergitutma bazasının genişləndirilməsi, vergi daxilolmalarının həcminin artması üçün əlverişli zəmin yaradır.

**Samir MUSTAFAYEV**



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

## Rakurs

### Vergi ödəyicilərinin hüquqları və vergi orqanlarının səlahiyyətləri nisbəti

Müasir vergi siyasətində vergi ödəyicilərinin hüquqları və vergi orqanlarının səlahiyyətlərinin optimal nisbətinin gözlənilməsi problemi bütün mərhələlərdə diqqətdə saxlanılan ən vacib prioritetlərdən biridir.

Burada «qızıl ortanın» əldə olunması və vergi qanunvericiliyində bu balansın əks etdirilməsi müasir vergi inzibatçılığı haqqında qanunvericiliyin keyfiyyət göstəricisi kimi qiymətləndirilir.

Azərbaycanın Vergi Məcəlləsində vergi orqanlarının ən başlıca səlahiyyəti Məcəllənin 23-cü maddəsinə əsasən verilmiş hüquqlar çərçivəsində vergi nəzarəti tədbirlərini həyata keçirmək və bununla bağlı vergi ödəyicisindən zəruri məlumatları almaqdan ibarətdir.

Beynəlxalq təcrübədə, xüsusilə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində də vergi ödəyicisindən vergi öhdəliyinin düzgün müəyyən olunması və vergidən yayınma risklərini minimallaşdırmaq üçün zəruri informasiyaların alınması səlahiyyətləri Vergi Məcəlləsi çərçivəsində Azərbaycanın vergi orqanlarına verilmiş səlahiyyətlərə adekvatdır.

Həm vergi orqanlarına, həm də vergi ödəyicilərinə münasibətdə qeyd olunan hüquq və səlahiyyətləri aşağıdakı fəaliyyət sahələri üzrə müqayisə edək:

- səyyar vergi yoxlamalarının keçirilməsi və sanksiyaların tətbiqi;
- vergi orqanlarının vergi ödəyicilərinin istehsal və yaşayış binalarına daxil olması;
- banklardan vergi ödəyicisi barədə məlumatların alınması;
- borcların alınması.

Səyyar və operativ vergi yoxlamalarının həyata keçirilməsi ilə bağlı vergi orqanlarına verilmiş hüququn həyata keçirilməsi vergi ödəyicilərinin fəaliyyətinə müdaxiləni nəzərdə tutduğu üçün vergi ödəyicilərinin qanuni maraqlarının qorunmasının təmin edilməsi məqsədilə yoxlama hüquqlarının verilməsi şərtləri qanunvericiliklə müəyyən çərçivəyə salınmışdır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələrdə səyyar vergi yoxlamalarının həyata keçirilməsi hüququ ilə bağlı qoyulmuş məhdudiyyətlər daha çox növbəti səyyar vergi yoxlamalarına başlamazdan əvvəl vergi ödəyicisinin əvvəlcədən bu barədə xəbərdar edilməsi, yoxlanılmış vergi dövrü üzrə təkrar yoxlamanın keçirilməsinin yolverilməzliyi, yoxlamanın keçirilməsi tezliyinin və müddətinin maksimal həddinin müəyyən olunması ilə əlaqədardır.

Azərbaycanda da vergi orqanları tərəfindən səyyar vergi yoxlamaları Vergi Məcəlləsi ilə müəyyən olunmuş şərtlər daxilində həyata keçirilir. Məcəllənin 36-cı maddəsinə əsasən, səyyar vergi yoxlaması mənfəət, gəlir, əmlak, yol və torpaq vergiləri üzrə vergi ödəyicisinin son 3 təqvim ilindən çox olmayan fəaliyyətini, digər vergilər üzrə həmin yoxlamanın keçirildiyi il də daxil olmaqla vergi ödəyicisinin son 3 ildən çox olmayan fəaliyyətini əhatə edə bilər.

*Vergi ödəyicisi vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda vergi yoxlaması aktının verilməsi günündən 30 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər*

Məcəllənin 38-ci maddəsi ilə müəyyən olunmuşdur ki, səyyar vergi yoxlaması vergi orqanının qərarına əsasən həyata keçirilir və növbəti səyyar vergi yoxlamasının başlanmasından azı 15 gün əvvəl vergi ödəyicisinə yazılı bildiriş göndərilir. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir və 30 gündən artıq davam edə bilməz. Müstəsna hallarda, yuxarı vergi orqanının qərarına müvafiq olaraq, səyyar vergi yoxlamasının keçirilməsi müddəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada 90 günə qədər artırıla bilər. Müqayisə üçün qeyd edək ki, səyyar vergi yoxlaması Portuqaliyada 6 aya, Meksikada 18 aya, İspaniyada 12 aya qədər davam edə bilər.

Növbədənkənar səyyar vergi yoxlamalarının keçirilməsi səlahiyyətləri də Vergi Məcəlləsi ilə müəyyən çərçivəyə salınmışdır. Belə yoxlamalar yalnız Vergi Məcəlləsinin 38-ci maddəsində göstərilən hallardan hər hansı biri olduqda vergi orqanının əsaslandırılmış qərarına görə həyata keçirilə bilər. Vergi ödəyicilərinin hüquqlarının qorunması məqsədilə Məcəllənin 36-cı maddəsi ilə müəyyən olunmuşdur ki, vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar vergi yoxlamasının keçirilməsini tələb edə bilərlər. Bu halda növbədənkənar vergi yoxlaması vergi orqanlarının əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxsləri tərəfindən aparıla bilməz.

Səyyar vergi yoxlamaları həyata keçirilərkən vergi ödəyicilərinin hüquqlarının qorunmasının təmin edilməsi diqqət mərkəzində saxlanılan əsas məsələlərdəndir. Bununla əlaqədar Məcəllənin 39-cu maddəsi ilə müəyyən edilmişdir ki, vergi ödəyicisi vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda vergi yoxlaması aktının verilməsi günündən 30 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər. Bu halda vergi ödəyicisinin yoxlama aktını imzalamamasını və ya etirazını ona öz yazılı izahatını (etirazını) təsdiq edən sənədlərin surətini əlavə edərək vergi orqanına təqdim etməyə hüququ vardır.

Bundan əlavə, Vergi Məcəlləsinin 15-ci maddəsinə əsasən, vergi ödəyiciləri vergi orqanlarının və onların vəzifəli şəxslərinin vergi qanunvericiliyinə uyğun olmayan aktlarını (qərarlarını) və tələblərini yerinə yetirməmək və müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək hüququna malikdirlər.

Vergi orqanlarının səlahiyyətlərinin həyata keçirilməsi və vergi ödəyicilərinin hüquqlarının qorunmasında ədalətlilik prinsipinə əməl olunmasını təmin edən normalar vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunma müddəalarında öz əksini tapmışdır. Burada vergi ödəyicisinin məsuliyyətə cəlb olunmasını istisna edən normalar daha çox rol oynayır. Bunlara misal olaraq, vergi qanunvericiliyinin pozulması faktını təsdiq edən halların və vergi ödəyicisinin təqsirinin sübut edilməsinin vergi orqanlarının üzərinə qoyulmasını, vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsirinin olmasında aradan qaldırılmaz şübhələr olduqda, onların vergi ödəyicisinin xeyrinə şərh olunmasını, vergi ödəyicisinin vergitutma obyektinin uçotunda, vergilərin hesablanmasında və ödənilməsində yol verdiyi səhvlərin müstəqil düzəltmək hüququnun olmasını və s. göstərmək olar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda vergi ödəyicilərinə tətbiq olunan maliyyə sanksiyalarının miqdarı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan digər ölkələrlə müqayisədə xeyli aşağıdır. Misal üçün, vergi bəyannaməsinin təqdim edilməməsinə görə tətbiq olunan sanksiya Fransada ödənilməli verginin 100%-i, İrlandiyada 80%-i həcmində tətbiq olunduğu halda Azərbaycanda bu sanksiya cəmisi 40 manat təşkil edir. Daha bir misal: Yunanıstanda verginin bəyannamədə azaldılmasına görə azaldılmış məbləğdən 150% həcmində maliyyə sanksiyası hesablanır. Azərbaycanda isə bu sanksiyanın dərəcəsi cəmi 50% təşkil edir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### *İdxal mallarının vergiyə cəlb olunması*

**Şəxs hər hansı xarici ölkədən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, daxili istehlak məqsədilə evi üçün alıb Azərbaycan Respublikasına gətirmək istədiyi əşyalar üçün hansı vergiləri ödəməlidir?**

Gömrük Məcəlləsinin 299.1-ci maddəsinə əsasən, gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması Gömrük Məcəlləsinin 214-cü maddəsi, «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən, qadağan edilmiş mallar istisna olmaqla, fiziki şəxslər istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malları gömrük sərhədindən müvafiq icra hakimiyyəti orqanının (Nazirlər Kabineti) müəyyən etdiyi güzəştli və sadələşdirilmiş qaydada keçirirlər.

Gömrük Məcəlləsinin 301-ci maddəsinə müvafiq olaraq, fiziki şəxslər gömrük rüsumlarını və vergiləri gömrük sərhədindən keçirdikləri malları yazılı formada bəyan edilən zaman yalnız bank, poçt və ya plastik kart vasitəsi ilə ödəyirlər.

Gömrük Məcəlləsinin 227.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq gömrük orqanları tərəfindən Gömrük Məcəlləsinin 228-230-cu maddələrində göstərilən (aksiz, yol və əlavə dəyər vergisi) vergilər alınır.

Vergi Məcəlləsinin 159.1-ci maddəsində qeyd edilmişdir ki, ƏDV üzrə malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal vergitutma obyektidir. Bu Məcəllənin 159.3-cü maddəsinə müvafiq olaraq malların idxalı ƏDV fəslinə uyğun olaraq, vergidən azad edilən idxal istisna edilməklə, vergi tutulan idxal sayılır. Tranzit yük daşınması qaydasında, müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan mallar və ya gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul olunmuş sayılmayan mallar ƏDV məqsədləri üçün idxal malları hesab edilmir.

Vergi Məcəlləsinin 159.3-cü maddəsinin müddəalarından göründüyü kimi, gömrük qanunvericiliyinə uyğun olaraq, daxili istehlak üçün idxal edilmiş mallar ƏDV məqsədləri üçün idxal malları hesab edilmir və ƏDV üzrə vergitutma obyekti deyildir.

Gömrük Məcəlləsinin 227.1-ci maddəsində Vergi Məcəlləsinə uyğun olaraq gömrük orqanları tərəfindən tutulan vergilər qismində aksiz vergisi də qeyd edilmişdir. Vergi Məcəlləsinin 190-cı maddəsində aksiz vergisinin tətbiq olunduğu malların siyahısı və dərəcələri qeyd edilmişdir.

Vergi Məcəlləsinin 188.1.1-ci maddəsinə əsasən, fiziki şəxsin fərdi istehlakı üçün üç litr alkoqollu içkinin və üç blok siqaretin idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq aksizdən azaddır. Vergi Məcəlləsinin müddəalarından göründüyü kimi, aksiz vergisi tətbiq edilən mallar kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, daxili istehlak məqsədilə idxal olunduqda azadolma halları istisna olmaqla, ümumi qaydada vergiyə cəlb edilir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya bu elektron poçt ünvanlarına
göndərə bilərsiniz: **s.musayeva@taxes.gov.az**, **anar.eliyev@taxes.gov.az**

# Azərbaycan Avropanın maliyyə bazarına daxil olur

***Respublikamızın «BB+» investisiya reytinqinə malik olması iri şirkətlərin və bankların Avropanın səhm bazarında aktiv iştirakı üçün əlverişli zəmin yaradıb***

«Moody's» beynəlxalq reytinq agentliyi Azərbaycanın uzunmüddətli yerli və xarici valyutada reytinqini «sabit» proqnozla «Baa3»-dən «Ba1» investisiya səviyyəsinədək yüksəltmək barədə qərar qəbul edib. Bir müddət əvvəl isə Avropanın nüfuzlu qurumlarından olan «Fitch Ratings» reytinq agentliyi respublikamızın reytinqini «BBB» səviyyəsindən «BB+» yüksəltmişdi. Hər iki reytinq əmsalı Azərbaycanın investisiya qabiliyyətinin yüksək göstəricisi kimi səciyyələndirilə bilər. Başqa sözlə, Azərbaycan bu reytinq ilə beynəlxalq maliyyə bazarlarında aktiv iştirakçıya çevrilə bilmək fürsəti qazanıb.

Son bir ildə dünya maliyyə bazarlarında canlanma proseslərinin sürətlənməsi artıq bir sıra ölkələri yenidən qiymətli kağızlar bazarına sərmayə qoymağa sövq edib. Böhran nəticəsində Avropanın iri maliyyə strukturlarında yaranmış boşluğu doldurmaq üçün hazırda rəqabət yaranıb. İnkişaf etməkdə olan dövlətlər öz maliyyə ehtiyatlarının bir qismini müxtəlif maliyyə alətləri formasında, xüsusilə də qiymətli kağız və istiqraz şəklində Avropanın kapital bazarlarına yönəltməyə çalışırlar. Dünya iqtisadiyyatında qiymətli kağızlar və istiqrazlar bank depozitlərindən və digər maliyyə alətlərindən daha gəlirli hesab olunduğundan, iri investorlar bu sahəyə daha çox sərmayə yatırırlar. Hər hansı bir ölkənin investisiya reytinqi daha yüksək olanda Avropa maliyyə bazarlarında həmin ölkənin investorlarına inam və etibar da böyük olur.

Azərbaycanın «BB+» əmsallı investisiya reytinqinə malik olması ölkəmizdəki dövlət və qeyri-dövlət şirkətlərinin, iri müəssisələrin, bank və səhmdarların Avropanın səhm bazarında aktiv iştirakı üçün əlverişli zəmin deməkdir. Son illər də fəal investsiya siyasəti yürüdən ölkəmizin Avropanın qiymətli kağızlar bazarına daxil ola biləcək yüksək reytinqli şirkətləri mövcuddur. Bütün bu faktorlar respublikamızın beynəlxalq maliyyə və qiymətli kağızlar bazarının fəal iştirakçısı kimi mövqeyinin möhkəmlənməsinə və Avropa regionunda sabit və potensial investor kimi öz maliyyə alətlərinin buraxılışını emissiya etməyə zəmin yaradır, kapital bazarlarına çıxışını asanlaşdırır.

Artıq respublikamızın bir çox iqtisadi qurumları tərəfindən buraxılan müxtəlif növ qiymətli kağızların uğurlu emissiya edilməsi də bundan irəli gəlir. Məsələn, Mərkəzi Bank tərəfindən emissiya olunan notlar, Beynəlxalq Bankın və Kapitalbankın buraxdığı istiqrazlar, İpoteka Fondunun istiqrazları, eyni zamanda digər bankların və maliyyə qurumlarının emissiya etdiyi avrobondlar (avroistiqrazlar), səhmlər dünya maliyyə sistemində Azərbaycanın iştirakını təmin etməyə geniş imkanlar yaradır.

Bu gün kredit və investisiya reytinqi yüksək olan dövlətlərin şirkətlərinin ən çox üstünlük verdiyi sahələrdən biri avrobond buraxılışıdır. Qeyd edək ki, avrobondlar maliyyə bazarlarında ən böyük dövriyyəyə malik qiymətli kağız sayılır və bu sahəyə bütün iri holdinqlər sərmayə yatırmağa maraq göstərirlər. Bu qiymətli kağız Avropada uzunmüddətli istiqrazların alınması zamanı borc öhdəlikləri kimi xüsusi çəkiyə malikdir. Avroistiqrazlar yüksək gəlirliliyi və maliyyə bazarlarında iri investora çevrilmək baxımından, şirkətlər üçün xüsusi bir səhm bölməsi kimi də səciyyələndirilir. Bu sahəyə daha çox pul qoymaqla Avropada iri investor kimi tanınmaq mümkündür. Uzunömürlü kağızlar kimi avrobondlar istənilən vaxt müəyyən divident gətirməklə satıla da bilər. Hazırda 25-dən çox ölkə bu kağızı emissiya etməyə üstünlük verir. MDB zonasında həmin kağızın buraxılışı ilə daha çox Rusiya məşğul olur, Qazaxıstan isə bu səhm variantlarını nəzərdən keçirir. Bu istiqrazların son illər cəlbediciliyi bir çox dövlətlərin iri şirkətlərini onun yeni buraxılışına sövq edir.

Hazırda ölkəmizin iqtisadiyyatındakı real vəziyyət xarici bazarlarda avrobond kapitalının yerləşdirilməsini aktuallaşdırıb. Beynəlxalq bazarlara debüt avrobondların buraxılması üçün ölkəmizin normal iqtisadi reytinqi əlverişli şərait yaradır: avrobond emissiyası üçün həmin ölkənin investisiya reytinqi BB olmalıdır. Ölkəmizin reytinqi bundan yuxarıdır və ona görə də bu sahədə heç bir maneə yoxdur. Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və Beynəlxalq Bank Avropa bazarlarına öz sərmayələrini yatırır və investisiya portfelində qiymətli kağızlara, o cümlədən avrobonlara üstünlük vermək niyyətindədir.. Məsələn, Dövlət Neft Fondu Avropada təxminən 500 milyon avro dəyərində avrobond buraxmağı istisna etmir.

**Elbrus CƏFƏRLİ**

# Daxili audit: reallıqlar və perspektivlər

***Mayın 3-də Azərbaycan Universitetində bu mövzuda beynəlxalq konfrans öz işinə başlamışdır***

Konfransı Azərbaycan Auditorlar Palatasının sədri Vahid Novruzov açaraq müzakirə olunan məsələlər ilə bağlı geniş məlumat vermişdir. O bildirmişdir ki, konfransın məqsədi daxili auditin iqtisadi inkişafda rolu və əhəmiyyəti ilə baglı peşəkar mütəxəssislərlə müzakirələr aparmaq, bu sahədəki mövcud problemləri təhlil etmək, beynəlxalq təcrübə nəzərə alınmaqla ölkəmizdə daxili auditin genişləndirilməsi istiqamətlərini dəqiqləşdirmək, daxili audit məsələləri üzrə maarifləndirmə və əməkdaşlığın fəaliyyət mexanizmlərini müəyyən etməkdir.

Xarici ölkələrdə dərin maraq doğurmuş və beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmiş «Daxili audit haqqında» Qanun ölkəmizdə bu sahənin inkişafı sahəsində mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə çıxış edən mütəxəssislər «Azərbaycanda daxili auditin təşəkkülü və inkişaf yolları», «Daxili nəzarət mühitində daxili auditin rolu və əhəmiyyəti», «Daxili audit: müasir problemlərə baxış», «Daxili auditin şəffaflığın artırılmasında rolu», «Bankların informasiya təhlükəsizliyi üzrə nəzarət tədbirləri» və s. mövzularda geniş məruzələr aparmış, fikir mübadiləsi etmişlər.

Konfransın ikinci günü Daxili Auditorlar İnstitutunun Avropa Konfederasiyası (ECIIA), Auditorlar Palatası və «Audit-Azərbaycan İnstitutu» İctimai Birliyi arasında auditin normativ hüquqi bazasına metodiki təminatına, təşkili və tənzimlənməsinə dair fikir mübadiləsi aparılmışdır. Qeyd edilmişdir ki, müvafiq təşkilatların bu sahədəki əməkdaşlığının daha da genişləndirməsinə zərurət olduğuna, görə gələcəkdə belə tədbirlərin daha intensiv şəkıldə kecirilməsi planlaşdırılır.

Qeyd edək ki, tədbir Azərbaycan İqtisadçılar İttifaqı, İqtisadi İnkişaf Nazirliyi, Daxili Auditorlar İnstitutunun Avropa Konfederasiyası (ECIIA), Auditorlar Palatası, «Audit-Azərbaycan İnstitutu» İctimai Birliyi və Azərbaycan Universitetinin birgə təşkilatçılığı ilə keçirilmişdir.

**Rəşad SADIQOV**

# Yeni enerji mənbələri

## *Ölkəmizdə alternativ enerji istehsalı üzrə Dövlət Proqramı uğurla icra olunur*

***Respublikamızın iqlim şərtləri il boyu günəş və külək enerjisindən istifadə edilməsi üçün çox əlverişlidir. Bu imkan nəzərə alınaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı»nı təsdiq edən xüsusi sərəncam imzalanmışdır.***

Proqramın əsas vəzifələri elektrik enerjisinin istehsalında alternativ enerji mənbələrinin potensialını müəyyənləşdirmək, bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltmək, yeni enerji istehsalı sahələrinin yaradılması hesabına əlavə iş yerlərinin açılmasını təmin etmək, respublikanın ənənəvi enerji mənbələrinin mövcud ümumi gücü nəzərə alınmaqla alternativ enerji mənbələrinin hesabına enerji gücünün artırılması və bununla da ölkənin enerji təhlükəsizliyinin təminatının yüksəldilməsinə nail olmaqdır. Azərbaycan 2020-ci ilədək ümumi enerji istehsalında alternativ enerji mənbələrinin payını 20% çatdırmağı planlaşdırır. Hazırda ölkədə kiçik su elektrik stansiyalarından istifadəni nəzərə alsaq, alternativ mənbələrin payı 10%-ə çatır.

### Yeni müəssisələr, yeni enerji mənbələri yaranır

Dövlət Proqramı çərçivəsində 61 kiçik su elektrik stansiyasının (SES) tikintisi nəzərdə tutulur ki, onların da bir qismi artıq istifadəyə verilmişdir. Bu SES-lərin irriqasiya kanalları üzərində, axını tənzimlənməmiş çaylarda və tikiləcək su anbarlarının yanında yerləşdirilməsi planlaşdırılır.

Azərbaycanda hər il tullantıların zərərsizləşdirilməsi poliqonlarına 2 milyon tondan çox bərk məişət və istehsalat tullantıları atılır. Bakı və ölkənin iri sənaye şəhərlərində ictimai binaların qızdırılmasındakı çətinlikləri aradan qaldırmaq məqsədilə bərk məişət və istehsalat tullantılarının emal edilməsi həmin problemlərin qismən aradan qaldırılmasını təmin etmiş olacaq. Yandırılmış tullantıların qalıqlarından isə gübrə kimi torpaqların münbitliyini artırmaq məqsədilə geniş istifadə olunması nəzərdə tutulur. Artıq Balaxanıda belə bir zavodun tikintisi başa çatmaq üzrədir.

Hesablamalara görə, Azərbaycan özünün coğrafi vəziyyətinə, təbii şəraitinə və iqtisadi infrastrukturuna görə illik 800 MVt-yə yaxın külək enerjisi ehtiyatına malikdir. Bu ehtiyat ildə təxminən 2,4 milyard kVt/saat elektrik enerjisi deməkdir. Qeyd olunan göstərici ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə küllü miqdarda tullantı, o cümlədən ozondağıdıcı xüsusiyyətlərə malik karbon-dioksidin atmosferə atılmasının qarşısının alınması deməkdir.

Dövlət Proqramına uyğun olaraq, özəl investisiya mənbələrinin də bu sahəyə cəlb edilməsi istiqamətində işlər görülür.

### Günəş enerjisindən daha çox istifadə olunacaq

Bir çox inkişaf etmiş ölkələrdə günəş enerjisinin istilik enerjisinə çevrilməsi gələcəyin enerji təminatı istiqamətlərindən biri kimi qiymətləndirilir. Sumqayıt Texnologiyalar Parkının Günəş kollektorları zavodu bu sahədə ölkəmizdə yaradılan ilk müəssisədir. Müəssisənin istehsal etdiyi məhsullara böyük tələbat var. Burada istehsal olunan qurğularla heç bir təbii enerji vasitələrindən istifadə etmədən mənzillərin, məktəb və bağçaların, iaşə obyektlərinin, fermer təsərrüfatlarının, səhiyyə obyektlərinin və s. sahələrin qaynar su və istilik problemini həll etmək mümkündür. Həmin avadanlıqlar, eyni zamanda, təhlükəsizlik baxımından da çox əlverişlidir.

Aparılan elmi araşdırmalar nəticəsində məlum olub ki, bütün dünyada istehsal edilən enerjinin 60%-dən çoxu yalnız istehlakçıların qaynar suya və istiliyə olan tələbatının ödənilməsinə sərf olunur. Belə olan halda, günəş enerjisindən istifadə edilməsi böyük iqtisadi səmərə ilə yanaşı, külli miqdarda tükənən yanacaq ehtiyatlarına da qənaət etməyə imkan verir. Kollektorlar müvafiq beynəlxalq sertifikatlara malikdir və istilik, donma, təzyiq, mexaniki yük, etibarlılıq kimi parametrlər üzrə testlərdən uğurla keçib.



Araşdırmalara görə, günəş enerjisindən istifadə etməklə bir ildə isti suya olan tələbatın 60-80%-ni ödəyə bilərik. Bu qədər təbii enerji resurslarından istifadə ekologiyamıza ziyan vurmağın qarşısını almaqla bərabər, milyonlarla manatlıq neft-qaz məhsullarına da qənaət deməkdir.

**Rəşad SADIQOV**

# Nağdsız hesablaşmalara keçmək zamanın tələbidir

***Ölkəmizdə gedən iqtisadi islahatlara, bu istiqamətdə Vergilər Nazirliyinin atdığı addımlara nəzər salmaq üçün Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadəyə müraciət etdik.***

***- Ziyad müəllim, 2012-ci ilin ilk rübünün nəticələri işığında respublikamızın sosial-iqtisadi vəziyyətini necə qiymətləndirmək olar?***

- Son illərdə ölkəmizdə maliyyə sabitliyinin, ölkənin dayanıqlı inkişafının, güclü maliyyə potensialı sisteminin qurulması üçün çox mühüm addımlar atılmaqdadır. Respublikamızın Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar nəticəsində yeni iqtisadi münasibətlər formalaşmış, mülkiyyət çoxnövlülüyü təmin edilmiş, azad rəqabət şəraiti yaradılmış və biznes mühitinin əlverişliliyinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilərək özəl sektorun davamlı inkişafına nail olunmuşdur. Milli iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi, rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası və digər amillər Azərbaycanın inkişaf baxımından



***Ziyad Səmədzadə:***

*POS-terminalların quraşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması istiqamətində həyata keçirilən islahatlar birbaşa vergi ödəyicilərinin maraq və mənafelərinə uyğundur*

yeni mərhələyə qədəm qoyduğunu şərtləndirir.

Ölkəmizdə gedən sürətli inkişaf 2012-ci ilin birinci rübündə də davam edib. Cənab Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında düzgün qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatı əvvəlki illərdə olduğu kimi dinamik inkişaf etməkdədir. İclasda dövlət başçısı bir neçə fundamental məsələyə toxunmuşdur. Ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, neft-yanacaq kompleksinin yenidən qurulması, qeyri-neft sektorunun çoxşaxəli inkişafının təmin olunması, özəl sektora dövlət dəstəyinin gücləndirilməsi, milli sahibkarlığın ixrac potensialının gücləndirilməsi, sosial infrastrukturun tamamilə yenilənməsi və digər mühüm istiqamətlər üzrə yeni vəzifələr müəyyən olunmuşdur.

***- Qeyri-neft sektorunun inkişafını necə proqnozlaşdırmaq olar?***

- Hazırda neft iqtisadiyyatın əsas aparıcı sahəsi olsa da, yaxın vaxtlarda ağırlıq mərkəzinin qeyri-neft sektorunun üzərinə düşməsi labüddür. Ölkə hökuməti qeyri-neft sektorunun inkişaf dinamikası, strukturu barədə araşdırmalar aparır. Təbii resursların istifadə həddi var. Ölkəmizin kifayət qədər neft-qaz ehtiyatları var. Amma tarazlı inkişaf, müasir və gələcək dünyanın tələblərinə cavab verən iqtisadiyyat qurmaq üçün qeyri-neft sektoru sürətlə inkişaf etdirilməlidir.

Biz ilkin mərhələdə neft istehsalını artırdıq, hasilatın yüksəlməsi, təbii ki, iqtisadi artıma təsir etdi. Hasilat sənayesində bir qanunauyğunluq var - bir müddət artım olur, sonra yeni yataqların istifadəyə verilməsi, texniki işlər və digər proseslərlə əlaqədar azalma baş verir. Ölkəmizdə baş verən proseslərin məntiqi məzmunu ondan ibarətdir ki, hasilat sənayesinin azalması qeyri-neft sektorunun yüksək artımı fonunda müşahidə olunur. Bunu ötən ilin və cari ilin birinci rübünün nəticələrində də görmək mümkündür. Yanvar-mart aylarında ümumi daxili məhsul istehsalında qeyri-neft sektorunda 7,7% artıb qeydə alınıb, eyni zamanda, qeyri-neft sənayesində artım tempi 16%-dən çox olub. Bu, son illər ərzində ən böyük göstəricilərdir. Bizim proqnozlara görə, qarşıdakı illər üzrə qeyri-neft sektorunun artım tempi daha da artacaq, hər il orta hesabla 7-8% artım gözlənilir. Onu da nəzərə almaq lazımdır ki, qeyri-neft sektorunun hər faizinin artması daha böyük həcmdə məhsul kütləsinin əldə olunmasına səbəb olacaq. Bu tendensiya ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etməklə bərabər, digər sahələrin inkişafına da böyük yol açmış olacaq.

***- İqtisadi inkişafda vergi sisteminin rolu nədən ibarətdir?***

- Vergi sistemi Azərbaycanın iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsidir. Ümumiyyətlə, vergi sistemində son illər aparılan islahatların əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Çox qısa müddət ərzində Azərbaycanda dayanıqlı, çevik vergi sistemi yaradılıb. Azərbaycan hökuməti vergi sisteminin təkmilləşdirilməsi və ən qabaqcıl dünya ölkələrinin təcrübəsinin öyrənilərək tətbiq edilməsi üçün davamlı işlər görür. Vergi Məcəlləsinə son illər edilən dəyişikliklər, vergi qanunvericiliyinin dünya standartlarına uyğunlaşdırılması, ən müasir informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı işlər xeyli genişlənib. Milli Məclisin iqtisadi siyasət komitəsində davamlı olaraq vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar müzakirələr aparılır, ölkəmizdə ən mütərəqqi vergi sisteminin qurulması üçün yeni təkliflər irəli sürülür, buna uyğun müvafiq qərarlar qəbul olunur. Bütün bunlar vergi mədəniyyətinin artmasına, inzibatçılığın daha da təkmilləşdirilməsinə öz müsbət töhfəsini verir.

Ölkə iqtisadiyyatının inkişafında, büdcənin formalaşmasında Vergilər Nazirliyinin xətti ilə yığılan vəsaitlərin həcmi artır. Cənab nazir Fazil Məmmədovun Nazirlər Kabinetinin iclasında çıxışı zamanı qeyd etdiyi kimi, ölkəmizdə sahibkarlıq sektorunun yüksək inkişafı, iqtisadi fəallığın artması, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın fəaliyyətinin güclənməsi vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artımına səbəb olub. Artıq qeyri-neft gəlirləri büdcə daxilolmalarında mühüm yer tutmağa başlayıb. Bu müsbət dinamika 2012-ci ilin birinci rübündə də müşahidə olunub, hesabat dövrü ərzində qeyri-neft sektorundan büdcəyə vergi daxilolmalarının həcmində 16%-dən çox artım qeydə alınıb. Yəni bu onu göstərir ki, respublikamızda iqtisadiyyatın neftdənkənar sahələrində inkişaf daha yüksəkdir, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi ilə bağlı həyata keçirilən strategiya düzgündür.

***- Nağdsız hesablaşmalar bazarının vəziyyətini necə qiymətləndirmək olar?***

- Nağdsız hesablaşmalar ölkədə vergi mədəniyyətini, alıcılıq mədəniyyətini yüksəldən amildir. Məlum olduğu kimi, dövriyyədə nağd pul kütləsinin həcminin çox olması bir sıra neqativ hallara gətirib çıxarır, vergidən yayınmalara səbəb olur, iqtisadiyyatın inkişafını ləngidir və s. Ona görə də nağdsız hesablaşmalarla bağlı görülən tədbirlərin əhəmiyyəti böyükdür. Bu sistemin inkişaf etməsi vergitutma bazasının genişlənməsinə, vergiyə cəlb olunan gəlirlərin düzgün müəyyən edilməsinə, şəffaflıq və etibarlılığa möhkəm zəmin yaradır.

Nağdsız hesablaşmaların stimullaşdırılması birbaşa dövlət başçısının nəzarətində olan məsələdir və bununla bağlı imzalanmış sərəncamda da bu məsələlərin həll edilməsi üçün konkret vəzifələr müəyyən olunub. Cənab Prezidentin tapşırığına uyğun olaraq, bu istiqamətdə xeyli işlər görülüb. Vətəndaşların ödəniş kartlarının sayının çoxalması, lazımi infrastrukturların yaradılması dövriyyədə olan nağd pul kütləsinin həcminin azalmasına səbəb olub. Bu məsələdə mən Vergilər Nazirliyinin gördüyü işləri çox yüksək qiymətləndirirəm. Nazirlər Kabinetinin iclasında dövlət başçısı da bunu razılıqla qarşıladı. POS-terminalların quraşdırılması ilə bağlı vəziyyət xüsusilə müsbət qarşılandı. Etiraf etmək lazımdır ki, bu gün ölkəmizdə POS-terminal şəbəkəsi çox genişdir və artıq hava limanından tutmuş nəqliyyat, xidmət sahələri və ticarət obyektləri POS-terminallarla təmin edilib. POS-terminalların quraşdırılması və nağdsız hesablaşmaların artırılması həcminin istiqamətində Vergilər Nazirliyinin fəal iş aparması ölkəmizin iqtisadiyyatına bir töhfə olmaqla yanaşı, Azərbaycanın inkişaf etmiş Avropa ölkəsi olduğunu göstərir.

POS-terminalların quraşdırılmasının sürətləndirilməsi, digər informasiya texnologiyalarının tətbiqi onu göstərir ki, ölkəmizdə çağdaş bir vergi sistemi qurulub. Hesab edirəm ki, həyata keçirilən bu islahatlar birbaşa vergi ödəyicilərinin maraq və mənafelərinə uyğundur, onların azad fəaliyyəti üçün böyük stimul yaradır. Sahibkarlığa yaradılan geniş imkanlar ölkəmizdə sahibkarların sayının armasına səbəb olur, vergi ödəyicilərinin sayının arması isə dövlət büdcəsinə daxil olan vergilərin həcminin yüksəlməsinə dərin zəmin yaradır. Bu tədbirlər nəticəsində ölkəmizin maliyyə bazası güclənir, iqtisadiyyatın inkişafı sürətlənir, insanların sosial rifahı yaxşılaşır.

**Elbrus CƏFƏRLİ**

# Dörd şirkətin stimullaşdırıcı lotereya kampaniyası dayandırılmışdır

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi bu günlərdə cari ilin birinci rübü ərzində qiymətli kağızlar bazarında mövcud durumu əks etdirən fəaliyyət hesabatını açıqlayıb. Hesabatda qeyd edilir ki, hesabat dövrü ərzində korporativ qiymətli kağızlar bazarının həcminin bir sıra amillərin təsiri fonunda azalmasına baxmayaraq, dövlət qiymətli kağızlar bazarında qeydə alınmış artım bütövlükdə bazarın dinamikasına müsbət təsir etmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk rübündə qiymətli kağızlar bazarının həcmi 1.6 dəfə artmışdır. Eyni zamanda, 2012-ci ilin birinci rübü ərzində korporativ qiymətli kağızlar bazarında əməliyyatların sayı da artaraq, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz artım təşkil etmişdir. Komitədən əldə etdiyimiz məlumata görə, korporativ qiymətli kağızlarla əməliyyatların 48 faizini səhmlər, 52 faizini isə korporativ istiqrazlar təşkil etmişdir.

Hesabatda bildirilir ki, I rübdə qiymətli kağızlar bazarında broker fəaliyyəti ilə məşğul olmaq üçün 3 lisenziya verilmiş, bununla da 7 peşəkar fəaliyyət üzrə 33 lisenziya qüvvədə olmuşdur. Bu dövr ərzində səhmdarların hüquqlarının müdafiəsi, habelə səhmdarlar arasında münasibətlərin tənzimlənməsi istiqamətində də işlər davam etdirilmişdir. Hesabat dövrü ərzində Komitəyə 144 səhmdar cəmiyyətində səhmdarların hüquqlarının pozulması barədə 46 şikayət ərizəsi və 8 müraciət daxil olmuşdur. Daxil olan müraciətlər əsasında aparılan araşdırmalar nəticəsində 45 səhmdar cəmiyyətin fəaliyyətində ciddi qanun pozuntuları aşkar olunduğuna görə həmin qurumlara qarşı 9150 manat məbləğində inzibati cərimə tətbiq edilmiş, 27 səhmdar cəmiyyətinə fəaliyyətlərində aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması haqqında 27 icrası məcburi göstərişlər verilmişdir.

Hesabat dövründə lotereya fəaliyyətinin tənzimlənməsi istiqamətində də tədbirlər davam etdirilmişdir. «Azərlotereya» ASC tərəfindən edilən müraciətlərə əsasən daha 2 lotereya qeydiyyata alınmış və beləliklə ASC tərəfindən keçirilən lotereyaların sayı 7-yə çatmışdır. Hesabat dövründə lotereyaların keçirilməsi üzrə qanunvericiliyin tələblərinə riayət etməyərək icazəsiz stimullaşdırıcı lotereya təşkil edən 4 şirkətin lotereya kampaniyası dayandırılmış, lotereyaların təşkili və keçirilməsi ilə bağlı hesabatları təqdim etmədiyi üçün 2 stimullaşdırıcı lotereya təşkilatçısı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən inzibati məsuliyyətə cəlb edilmişdir.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Baxış bucağı

## Audit - onun mahiyyəti və ya fəlsəfəsi

Hələ sovetlər hakimiyyəti dövründən cəmiyyətdə qorxu-xof yaradan bir çox ifadələr bu gün də insanların düşüncəsində olduğu kimi qalmaqda davam edir. Məsələn, sovet dövründə «revizor»ların, «yoxlayıcı»ların, «təftişçi»lərin, «nəzarətçi»lərin müəssisələrə daxil olmasını arzulamayan bəzi insanlar cərimələnəcəklərindən qorxaraq psixoloji sarsıntılar keçirər və gərginlik yaşayardılar. Əlbəttə, o dövrdə gərginlik yaşanmasına çoxlu əsasların olduğunu nəzərə alsaq, təsərrüfat subyekti rəhbərləri və digər məsul işçilərinin xof yaşaması qaçılmaz idi.

Hazırkı dövrdə isə respublikamızın müstəqil iqtisadi həyat tərzi bir iqtisadi quruluş olaraq təsərrüfat subyekləri rəhbərlərini o zamanlardakı kimi «gərginlik yaşaması» təsəvvürlərindən uzaqlaşdırmaqda davam edir. Çünki o vaxtkı gərgin həyat yaşadan «revizorları» bu gün müstəqil, tərəfsiz, vicdanlı və azad auditorlar əvəz edir.

Təsəvvür edin ki, müəssisə özü öz auditorunu, yəni öz yoxlayıcısını özü müəyyən edir və onu könüllü olaraq seçməklə obyektinə dəvət edir. Kənardan baxana bu, bir dost gəlişinə də oxşayır desək, yanılmarıq. Obyektə daxil olan müasir auditora qarşı hər hansı xofun baş verməsi mümkün deyildir. Əgər bu baş verərsə, deməli, təsərrüfat subyektinin məsul işçilərindən hansısa öz işində nöqsanlara yol vermişdir və bu barədə sahibkarı, yəni əmlak sahibini - mülkiyyətçini məlumatlı edəcək auditordan kimsə çəkinə bilər. Auditor hər hansı çatışmazlıq barədə sahibkara məlumat verirsə və sahibkar da buna görə hər hansı qabaqlayıcı tətbir görürsə, bunun nəyi pisdir ki?!

Mən auditoru iqtisadi səmiyyətin «ağacdələni» adlandırardım. Əksər hüquqi şəxslərin maliyyə-təsərrüfat fəaliyyəti boyu özlərinə bəlli olmayan, lakin aşkarlanması vacib olan problemləri çoxdur. Bu problemlərin qabardılması və müsbət həllinin tapılması üçün auditorun müstəsna rolu vardır.

Məlumdur ki, sahibkar (təsisçi, səhmdar, payçı, fərdi sahibkar və s.) yaratdığı müəssisənin (biznesinin) maliyyə göstəriciləri barədə vaxtaşırı maraqlanır, həmin göstəricilər əsasında fəaliyyətinin davamını planlaşdırır və bu barədə iqtisadi qərarlar verir. Hətta bazarda ən bəsit qaydada öz məhsulunu satan sadə satıcı da axşam evinə dönərkən əldə etdiyi qazancı (gəliri) kortəbii də olsa hesablayır, amma növbəti gün yenidən mal almaq üçün lazım olan məbləği ayırır, satacağı malların üzərinə qoyacağı əlavə məbləği düşünür, satış zamanı gözlənilən problemləri xatırlayararaq onları dəf etmək barədə fikirləşir və beləliklə, özü də bilmədən kiçik biznes qərarları verməkdə davam edir. Bu, kiçik biznesdir və sadə sahibkar özünün kiçik gəlirlərini hesablamaqda və riskləri idarə etməkdə problemləri olmaya bilər. Lakin orta və iri sahibkarlıqda müəssisənin (təşkilatın) maliyyə göstəriciləri həddindən artıq çoxdur və bu göstəricilərin bir-biri ilə əlaqəli olması, kommunikasiyalı və nəzarətedici xarakterə malik olması sahibkarın iqtisadi qərarlar verməsi üçün çətinlik törədə bilər.

Fərz edək ki, məsul şəxslər tərəfindən müəssisənin müəyyən dövrə maliyyə hesabatları (maliyyə göstəriciləri) təqdimat üçün hazırdır. Təqdimat həmin hesabatların göstəricilərindən yararlanan istifadəçilər, yəni səhmdarlar, təsisçilər, rəhbərlər, vəzifəli şəxslər, dövlət orqanları, kredit təşkilatları və başqaları üçündür ki, onlar müəssisənin hərtərəfli vəziyyəti barədə tam məlumatlı olsunlar. Göründüyü kimi, bir tərəfdə maliyyə hesabatlarını hazırlayan məsul işçilər (müəssisəni idarə edənlər), digər tərəfdə isə həmin hesabatları nəzərdən keçirən istifadəçilər (müəssisənin fəaliyyətinə pul qoyanlar) durur. Lakin əsas məsələ bu iki tərəf arasında münasibətlərin səmimiliyini maksimum dərəcədə yaxşılaşdırmaqdır. İstifadəçi ona təqdim olunan hesabata və onun göstəricilərinə mütləq qaydada inanmasına məcbur edilə bilməz və hesabata qarşı onun daxilində hər hansı formada inamsızlıqların yaranması həmişə labüd olmuşdur. Bazar iqtisadiyyatı şəraitində müəssisələr bir çox hallarda müflisləşir, istifadəçilər müəssisəni idarə edənlər tərəfindən aldadılır və buna görə də istifadəçilər tərəfindən müəssisəyə pul qoyuluşu riski yaranır. İstifadəçilər müəssisə rəhbərlərinin və mühasiblərin təqdim etdikləri maliyyə informasiyasına etibar edə bilmirlər və necə deyərlər, heç etibar da etmək istəmirlər. Səhmdar cəmiyyətinin səhmini, məhdud məsuliyyətli cəmiyyətin payını almaq istəyən və ya hər hansı investisiya qoyuluşu etmək istəyən tərəf əmin olmaq istəyir ki, onları aldatmırlar, idarə edənlərin təqdim etdiyi hesabat müəssisənin həqiqi maliyyə vəziyyətini tam əks etdirir. Bunu təsdiq etmək üçün isə auditorlar dəvət olunur, çünki onlara etibar etmək olar.

Deməli, auditor rəy verməklə, yəni fikir bildirməklə təsərrüfat subyektinin cari idarə edənləri tərəfindən təqdim olunan hesabatlardakı göstərici və məlumatlara istifadəçilər tərəfindən maksimum dərəcədə və qeyri-şərtsiz formada inamın yaradılmasına xidmət edir.

# Operativ nəzarət tədbirləri

2012-ci ilin aprel ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən ödəyicilərin aşkarlanması, valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 2835 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 1419 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 302 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu və valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satıldığı və ya dəyişdirildiyi, 109 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 547 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir.

Operativ nəzarət tədbirləri zamanı 255 vergi ödəyicisi tərəfindən 422 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 147 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 26 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 170 ədəd mal olduğu aşkarlanmışdır.

Yuxarıda qeyd olunan faktlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

# «Transfert qiymətləndirmə» mövzusunda seminar

24-26 aprel tarixlərində Rusiya Federal Vergi Xidmətinin dəvəti ilə Moskva şəhərində «Transfert qiymətləndirmə» mövzusunda seminar keçirilmişdir. Tədbirin əsas məqsədi transfert qiymətləndirmə sahəsində mövcud vəziyyətin təhlili və gələcək inkişaf istiqamətlərinin müzakirəsinin aparılmasından ibarət olmuşdur. Keçirilən seminar transfert qiymətləndirmə ilə bağlı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 2012-ci ilin mart ayında Parisdə keçirdiyi ilk illik beynəlxalq səviyyəli forumda baxılan məsələlərin təhlilinin davam etdirilməsi kimi nəzərdə tutulmuşdur.

Seminarda transfert qiymətləndirmə üzrə beynəlxalq qanunvericilik və onun nəzəri məsələləri araşdırılmış, vergi məqsədləri üçün qiymətlərin təyin edilməsi üsullarına, həmçinin transfert qiymətləndirilməsi ilə bağlı vergi mübahisələrinin aradan qaldırılması və tənzimləmə mexanizmlərinin tətbiq edilməsi hallarına baxılmışdır.

Tədbirdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi İmran Qarayev iştirak etmişdir.




# Beynəlxalq velotur Azərbaycanın idman imicini daha da yüksəldəcək

*Əhalinin fiziki-mənəvi sağlamlığının etibarlı şəkildə təmini məqsədilə idmanın və bədən tərbiyəsinin kütləviləşməsi istiqamətində davamlı tədbirlər həyata keçirən Azərbaycan bir sıra beynəlxalq yarışlara da ev sahibliyi edir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə mayın 9-dan 13-dək respublikada velosiped idmanı üzrə keçiriləçək beynəlxalq turnir də belə mötəbər tədbirlərdən biri kimi diqqətlə izlənir. Azərbaycan Velosiped İdmanı Federasiyası, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, Beynəlxalq Velosipedçilər İttifaqının birgə təşkilatçılığı ilə 5 mərhələdə keçiriləcək velotur respublikanın idman imicinin daha da yüksəldilməsi baxımından əhəmiyyətlidir.*

Azərbaycanı ilk peşəkar velosiped yarışında «ATA sport» və «Sumqayıt» komandalarının idmançıları təmsil edəcəklər. Turnirə hazırlıq mərhələsində komandalarımızın üzvləri Rusiya, Ukrayna və Almaniyada təlim-məşq toplantısında iştirak ediblər. Velosiped idmanı üzrə idmançıların hazırlanmasında, ümumilikdə bu idman növünün kütləviləşməsində xidmətləri olmuş məşqçi və mütəxəssislər isə respublikada beynəlxalq veloturun keçirilməsini tarixi hadisə kimi dəyərləndirirlər.

«Velotrek» Uşaq-Gənclər Olimpiya Ehtiyatları Mərkəzinin məşqçisi Elçin Qəhrəmanov bildirir ki, son illər respublikada idmanın ən müxtəlif növlərinin inkişafına göstərilən yüksək diqqət və qayğı, bu sahənin infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər velosiped idmanına marağı artırıb. Bu idman növünün Azərbaycanda müəyyən inkişaf yolu keçdiyini deyən Elçin Qəhrəmanov respublika idmançılarının tarixi uğurlarından söz açıb: «Azərbaycanın vaxtilə SSRİ yığma komandasında təmsil olunan adlı-sanlı velosipedçiləri olub. SSRİ-nin dağılmasından sonra isə idmanın bəzi növləri kimi, bu sahədə də durğunluq müşahidə olunurdu. Mən də belə ağır şəraitdə məqçilik fəaliyyətinə başlamışam. Təlim-məşq şəraitinin ağırlığına, lazımi avadanlıqların çatışmazlığına baxmayaraq, gənclərdə bu idman növünə marağı artıra, respublika səviyyəsində tanınan və beynəlxalq mükafatlara layiq görülən çoxlu sayda idmançı hazırlaya bildik. Belə idmançılardan Dmitri Kalinin, Tural Vəliyev, Faiq Həmidov, Rüfət Atakişiyev, Vüqar Salahov, Dmitri Suçilin, Elçin Əsədov və başqalarının adlarını çəkə bilərəm».

Milli Olimpiya Komitəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının son illərdə bu idman növünün inkişafı və təbliği yönümündə həyata keçirdiyi tədbirləri yüksək dəyərləndirən Elçin Qəhrəmanov bunun nəticəsi olaraq yeniyetmə və gənclər arasında veosiped idmanına marağın artdığını vurğulayır: «Sevindirici haldır ki, hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanda əhali arasında xeyli populyar olan velosiped idmanının inkişafı istiqamətində son illərdə həyata keçirilən tədbirlər müsbət nəticələrini verir. Velosiped İdmanı Federasiyasının bu idman növünün ictimai əhəmiyyəti və inkişaf perspektivləri ilə bağlı apardığı təbliğati iş nəticəsində velosiped idmanına marağın artması müşahidə olunur. Bu idman növü ilə peşəkar səviyyədə məşğul olan və ilk uğurlarını qazanan idmançılarımızın da sayı getdikcə artır. Akif Abdullayev, Qurban Tağıyev və Tural İsgəndərov kimi gənclərin böyük uğurlar qazanacağına əminəm».

Elçin Qəhrəmanov hesab edir ki, Azərbaycanda ilk dəfə olaraq beynəlxalq velosiped turnirinin təşkil olunması respublikanın idman tarixinə əlamətdar hadisə kimi düşəcək. Onun fikrincə, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velotur həm də Azərbaycanın belə mötəbər yarışları təşkil etmək üçün zəruri maddi-texniki bazaya, idman infrastrukturuna malik qüdrətli dövlət olmasından xəbər verir. Beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkil olunduğunu bildirən Elçin Qəhrəmanov azərbaycanlı velosipedçilərin bu gərgin yarışda uğurlu nəticələr qazanacağına inanır. O hesab edir ki, velotur ümumilikdə respublikada velosiped idmanının populyarlaşmasına ciddi təkan verəcək: «Hesab edirəm ki, bu tədbir Azərbaycanın velosiped idmanının inkişafında tamamilə yeni mərhələnin əsasını qoyacaq. Velotur insanlar arasında velosiped idmanına marağı gücləndirəcək. Arzu edirəm ki, belə turnirlərin keçirilməsi ənənə halını alsın və Azərbaycanda «Tur de Frans», «Deciro de İtaliya» səviyyəli velosiped yarışları keçirilsin. Biz də öz növbəmizdə idmançılarımızın bu və digər beynəlxalq yarışlarda, olimpiya meydanlarında uğurlu nəticə qazanmaları üçün əlimizdən gələni edəcəyik».

**Samir MUSTAFAYEV**



Qulu Soltanov,
sərbəst auditor

Mühasibat

## Amortizasiya, onun mühasibat və vergi uçotu üzrə təhlili

*Hörmətli oxucular, bu yazıda çalışacağıq ki, mühasibat uçotunun mühüm tərəfi olan amortizasiya əməliyyatlarının uçotu ilə bağlı əsas və maraqlı məqamları sizinlə paylaşaq.*

Bəzən müəssisələr fəaliyyətini müvəqqəti olaraq müəyyən müddətə dayandırırlar. Əsasən də özəlləşdirmə nəticəsində yaranan səhmdar cəmiyyətləri uzun müddət maliyyə imkanlarının zəif olmasına görə fəaliyyətini myəyyən müddətə saxlamalı olurlar. Hətta məhdud məsuliyyətli cəmiyyətlər də olur ki, fəaliyyətini 5 il müddətinə dayandırır. Bəzən başqa cür də olur, məsələn, xammalın vaxtında alınmaması və ya müştərilərin olmaması səbəbindən müəssisələr müvəqqəti olaraq fəaliyyətini saxlayırlar, yəni boşdayanmalar baş verir.

Bütün bu hallarda müəssisənin balansında olan əsas vəsaitlərə, yəni binalara, avadanlıqlara və digər uzunmüddətli əşyalara amortizasiya hesablanması davam etdirilməlidirmi və ya davam etdirilməsi mütləq dayandırılmalıdırmı? Bəzən görürsən ki, vergi yoxlamaları zamanı yoxlayıcı soruşur ki, əgər istehsal fəaliyyətin olmamışdırsa, gəlir əldə etməmisənsə, nə üçün amortizasiya hesablayıb gəlirdən çıxmısan?

Bu məsələyə 2 istiqamətdə yanaşılmalıdır:

1. Mühasibat uçotu məqsədləri üçün amortizasiya.

2. Vergitutma məqsədləri üçün amortizasiya.

### Mühasibat uçotu məqsədləri üçün amortizasiya

Kommersiya təşkilatları üçün 7№-il «Torpaq, tikili və avadanlıqlar» üzrə Milli Mühasibat Uçotu Standartının 47-ci maddəsində göstərilir ki, amortizasiya aktivin istismara verilildiyi andan başlayaraq hesablanır, yəni müəssisə rəhbərliyi tərəfindən həmin aktivin müəyyən edilmiş qaydada işləməsi üçün zəruri olan məkan və vəziyyətə gətirildiyi andan və bu aktivin faktiki istifadəsindən asılı olmayaraq hesablanmağa başlamalıdır. Aktivdən müntəzəm olaraq istifadə edilməməsi faktı amortizasiyanın dayandırılmasına mütləq səbəb kimi hesab edilməli deyil. Aşağıdakı hallardan hər hansı biri daha tez baş verdikdə amortizasiyanın hesablanması həmin tarixdə dərhal dayandırılmalıdır:

(a) aktiv satış üçün nəzərdə tutulduqda, lakin həmin tarixdə tam olaraq amortizasiya edilmədikdə;

(b) aktivin tanınması dayandırıldıqda;

c) aktiv tam amortizasiya olunmuş, lakin onun tanınması dayandırılmadıqda.

Standartın 47-ci maddəsinin bəzi ifadələrini təhlil edək. Maddənin mətnində «aktivin müəyyən edilmiş qaydada işləməsi üçün zəruri olan məkan və vəziyyətə gətirildiyi andan» ifadəsi bizim köhnə düşüncəmizlə «əsas vəsaitlərin istismira verilməsindən sonra» ifadəsi ilə eynidir. Yəni köhnə uçot qaydalarına görə əsas vəsaitlər istismara verildikdən sonra 08№-li hesabdan çıxarılaraq 01№-li hesabda uçota alınırdı, yeni uçot qaydalarında da əsas vəsaitlər (torpaq, tikili və avadanlıqlar) istismara verildikdə sonra 113№-li hesabdan çıxarılaraq 111№-li hesabda uçota alınır. Fərq ondadır ki, əsas vəsaitlər və istismara verilməmiş əsas vəsaitlər köhnə 1№-li Balans formasında ayrı-ayrı sətirlərdə göstərildiyi halda, yeni Mühasibat Balansı formasında bir sətirdə əks etdirilir. Deməli, əsas vəsaitlər və istismara verilməmiş əsas vəsaitlər yeni Mühasibat Balansı formasında bir sətirdə əks etdirilirdiyinə görə həmin sətirdə göstərilən məbləğlər mənfəət vergisi bəyannaməsinə əlavənin 1.1.1 saylı «binalar, tikililər və qurğular» sətrinin məlumatları ilə eyni olmaya bilər.

Yeni tələblərdə də alınmış, əldə edilmiş tikililər, avadanlıqlar və digər uzunmüddətli əşyalar nə qədər ki, istismara verilməyib, həmin aktivlər köhnə hesablar planı üzrə 08№-li hesabın debetində saxlandığı kimi, yeni hesablar planında da 113№-li, 122№-li hesabın debetində saxlanılır.

47-ci maddənin məzmunundan belə aydın olur ki, müəssisələr fəaliyyətini müvəqqəti olaraq müəyyən müddətə dayandırmasından, özəlləşdirmə nəticəsində yaranan səhmdar cəmiyyətləri uzun müddət maliyyə imkanlarının zəif olmasına görə fəaliyyətini müəyyən müddətə saxlamasından, məhdud məsuliyyətli cəmiyyətlər fəaliyyətini 5 il müddətinə dayandırmasından, xammalın vaxtında alınmaması və ya müştərilərin olmaması səbəbindən müəssisələr müvəqqəti olaraq fəaliyyətini saxlamasından, boşdayanmaların baş verməsindən asılı olmayaraq, amortizasiya hesablanması davam etdirilə bilər. Əsas vəsaitlərin satılması barədə qərar qəbul edildikdə, ləğv edildikdə və tam amortizasiya olunduqda amortizasiya hesablanması dayandırılır.

**davamı növbəti sayımızda**

vergi taqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | **15** | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | 31 | | | |
| | | | | | | |

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**15 may** - «(5)», «6».
**21 may** - «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

IOTA xabarlari

# IOTA-nın növbəti iclası



Bu günlərdə İsveçrə Konfederasiyasının Bazel şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən «Strateji idarəetmə: Bençmarkinq» İşçi Qrupunun növbəti iclası keçirilmişdir. İclasın keçirilməsində əsas məqsəd İşçi Qrupun nəzdində yaradılmış Tapşırıq qruplarının gördükləri işlər, bençmarkinqin IOTA-ya üzv olan ölkələrin vergi administrasiyalarında tətbiqi vəziyyəti ətrafında müzakirələrin aparılması, vergi ödəyicilərinə xidmətin yüksəldilməsi ilə inzibati yükün aşağı salınması sahəsində digər ölkələrlə təcrübə mübadiləsinin aparılması olmuşdur.

Tapşırıq qrupları tərəfindən on yeddi ölkənin internet fəaliyyəti monitorinq edilmiş və nəticələrə görə, Azərbaycandan başqa yalnız üç ölkənin vergi administrasiyasının «Facebook» sosial şəbəkəsində səhifəsi olduğu məlum olmuşdur.

Qeyd edək ki, «Bençmarkinq» sistematik və ardıcıl qiymətləndirmə prosesidir və onun məqsədi təşkilatın fəaliyyətinin səmərəliliyini artırması üçün öz daxili iş proseslərini dünyanın hər hansı yerində yerləşən və həmin iş prosesləri üzrə lider olan təşkilatlarla müqayisə etməsi və məlumat toplamasından ibarətdir.

Tədbirdə 19 ölkənin nümayəndəsi iştirak etmişdir. Ölkəmizi bu tədbirdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Real sektorun monitorinqi şöbəsinin rəisi Zaur Quliyev təmsil etmişdir.

**AYTƏN**

# «Avroviziya» ölkəmizdə turizmə güclü təkan verəcək

## Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Bağırov: *«Turistlər üçün ingiliscə hazırlanan xüsusi bukletlərdə müsabiqənin keçiriləcəyi yerin xəritəsi ilə yanaşı, Azərbaycan haqqında da geniş məlumatlar əksini tapıb»*

Turizm müasir dünyada iqtisadi baxımdan ən gəlirli və sürətlə inkişaf edən biznes sahələrindən biri sayılmaqla yanaşı, həm də hər bir dövlətin beynəlxalq arenaya çıxışını sürətləndirmək, çoğrafi resurslarını, mövcud imkanlarını, mədəniyyətini təbliğ etmək, tanıtmaq vasitəsinə çevrilib. Ümumdünya Turizm Təşkilatının (ÜTT) hesabatına əsasən, 2011-ci ildə dünya ölkələrinin turizmdən əldə etdiyi gəlirlər 922 milyard ABŞ dolları təşkil edib. Hesabatda bildirilir ki, dünya ölkələri üzrə ümumi milli məhsulun 10%-i, ixracın isə 8%-i turizmin payına düşür. Dünyada əməkqabiliyyətli əhalinin 8,1%-i birbaşa turizm sektorunda və onunla bağlı xidmət sahələrində çalışır. ÜTT-nin hesabatında 2012-ci ildə dünya dövlətlərinin turizm üzrə gəlirlərinin daha 4-5% artacağı proqnozlaşdırılır. Təşkilatın ekspertləri hesab edirlər ki, xüsusən də inkişaf etməkdə olan ölkələrin sürətli iqtisadi artım tempi nəticəsində dünyada turizm də yeni inkişaf mərhələsinə qədəm qoyub. Təşkilat Azərbaycanın yerləşdiyi coğrafi turizm məkanı üzrə bu il artımın 4-6% təşkil edəcəyini proqnozlaşdırır.

İqtisadçı ekspertlərin fikrincə, Azərbaycanın turizm potensialının yüksək dəyərləndirilməsi son illər bu sahədə infrastrukturun müasirləşdirilməsi tədbirləri ilə yanaşı, həm də təbii-coğrafi amillərlə şərtlənir. Turizm sahəsində ixtisaslı kadrların hazırlanması məqsədilə 2005-ci ildə yaradılmış Azərbaycan Turizm İnstitutunun direktoru Cəfər Cəfərov hesab edir ki, respublikamızın beynəlxalq turizmin inkişafı sahəsində böyük potensialı var - ölkədə 7000-dək mühafizə olunan yerli, ölkə və dünya əhəmiyyətli tarixi abidənin, mədəniyyət və cəlbedici təbiət guşələrinin mövcudluğu əcnəbi turistlərin böyük marağına səbəb olur: «Azərbaycan 11 iqlim qurşağından 9-na malikdir. Respublikamızın Şərqlə Qərbin təmas nöqtəsində yerləşməsini, ölkədəki ictimai-siyasi sabitliyi, müxtəlif dinlərə mənsub insanların bu coğrafiyada mehribancasına yaşamasını, zəngin milli mətbəximizi, yüksək azərbaycanlı qonaqpərvərliyini də buraya əlavə etsək, respublikamızın turistlər üçün nə qədər cəlbedici olduğunu aydın görərik».

Turizm İnstitutunun direktoru ölkə rəhbərliyinin bu sahədə həyata keçirdiyi tədbirləri də yüksək dəyərləndirir. Onun sözlərinə görə, 1999-cu ildə qəbul edilmiş «Turizm haqqında» Qanunda bu sahədə dövlət siyasətinin əsas prioritetləri, hədəfləri müəyyən olunub. Azərbaycanda turizmin inkişafına dair birinci (2002-2005-ci illər üçün) və ikinci (2010-2014) dövlət proqramları qəbul edilib. 2011-ci ilin «Turizm ili» elan edilməsi də bu istiqamətdə mühüm tədbirlərin həyata keçirilməsinə imkan verib. C.Cəfərov yaxın gələcəkdə Azərbaycanda turizm sahəsindən daxil olan vergilərin də əhəmiyyyətli dərəcədə artacağına ümidvar olduğunu bildirib.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq, Azərbaycan 2011-ci ildə 1,5 milyona yaxın turist qəbul edib. 2012-ci ildə bu rəqəmin daha da artacağı gözlənilir və bu da, ilk növbədə, dünyada böyük maraqla izlənən «Avroviziya» mahnı müsabiqəsinin Bakıda keçiriləcəyi ilə izah olunur. May ayında mahnı müsabiqəsi və müxtəlif beynəlxalq idman yarışlarının keçirilməsi ilə əlaqədar ümumilikdə 20 minədək turistin Azərbaycana gələcəyi proqnozlaşdırılır. İqtisadçı ekspertlərin fikrincə, hər turistin orta hesabla 1000 dollar vəsait xərcləyəcəyi halda, respublikanın turizmdən azı 20 milyon dollar gəlir əldə edəcəyi gözlənilir.

«İmproteks» Turizm Şirkətinin daxili turizm şöbəsinin müdiri Elçin Qədirovun sözlərinə görə, son illər müxtəlif ölkələrdən olan turistlər Azərbaycanın bölgələrinə təşkil olunan turlara böyük maraq göstərirlər. Təkcə həmsərhəd deyil, hətta Almaniya, Fransa, Böyük Britaniya, Yaponiya kimi uzaq ölkələrdən də Azərbaycana gələn turistlərin sayı artır. E.Qədirov bildirir ki, əcnəbi turistlər əsasən Bakı, Qəbələ və Şəki şəhərlərində istirahət etməyə maraq göstərirlər.

Azərbaycan Turizm Assosiasiyasının sədri, «Avroviziya-2012» üzrə Təşkilat Komitəsinin üzvü Nahid Bağırov isə qeyd edir ki, indiyədək müsabiqədə iştirak üçün müraciət etmiş 4000 turistin qarşılanması üçün bütün zəruri tədbirlər həyata keçirilib. O, yaxın günlərdə bu rəqəmin daha da artacağını diqqətə çatdırıb. N.Bağırovun sözlərinə görə, ilkin mərhələdə rəsmi nümayəndələrin və jurnalistlərin yerləşdirilməsi məsələləri yüksək səviyyədə həllini tapıb: «Həmin şəxslərin hansı hotellərdə yerləşdiriləcəyi artıq məlumdur. Eyni zamanda, turistlər üçün ingiliscə hazırlanan xüsusi bukletlərdə müsabiqənin keçiriləcəyi yerin xəritəsi ilə yanaşı, Azərbaycan haqqında da geniş məlumatlar əksini tapıb. Eyni zamanda, hotellərdə turistlərlə işləyəcək xüsusi qruplar yerləşdirilib. Bir sözlə, turistlərin yüksək səviyyədə qarşılanması üçün bütün zəruri tədbirlər görülüb».

N.Bağırov müsabiqədə iştirak edəcək turistlər üçün xüsusi turların təşkil olunacağını da diqqətə çatdırıb: «Müsabiqə müddətində turistlər üçün Bakıda gündəlik 3 dəfə «siti-tur» - şəhər gəzintisi təşkil olunacaq. Bundan başqa, əcnəbi qonaqlar üçün gün ərzində 2 dəfə Qobustana, 2 dəfə Abşerona, 1 dəfə isə Şamaxı-İsmayıllı-Qəbələ-Şəki istiqamətində turlar təşkil ediləcək Hesab edirəm ki, Təşkilat Komitəsi tərəfindən bütün hazırlıqlar peşəkar səviyyədə aparılır. Azərbaycan bu müsabiqəni yüksək səviyyədə keçirmək iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirəcək».

**S.MUSTAFAYEV**

idman xəbərləri




## *Qədim oyuna böyük maraq*

# Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş şahmat turniri başa çatmışdır




*Vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş ənənəvi şahmat turniri Azərbaycan Respublikası Vergilər Nazirliyi, Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə keçirilmişdir.*

Nazirliyin əksər struktur vahidlərinin əməkdaşlarının iştirak etdikləri yarışlara aprel ayının 14-də start verilmiş, may ayının 5-də isə yekun vurulmuşdur. Olimpiya sistemi üzrə keçirilən turnirdə Vergilər Nazirliyi Aparatının rəhbərinin müavini Əli Həsənov (1-ci yer), Vergi Auditi Departamentinin əməkdaşı Azay Məmmədov (2-ci yer), Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Babək İbrahimov (3-cü yer) qalib gəlmişlər.

Mərasimdə çıxış edən vergilər nazirinin müşaviri Günay Cəfərli demişdir ki, hər il keçirilən və müsbət ənənə halını alan şahmat turniri vergi xidməti əməkdaşlarının ulu öndər Heydər Əliyevin xatirəsinə yüksək ehtiramının təcəssümüdür. Günay Cəfərli qədim tarixə malik, güclü zehni qabiliyyət tələb edən şahmatın respublikamızda populyarlaşmasında ümummilli liderin xidmətlərini xüsusi vurğulayaraq qeyd etmişdir ki, vergi xidməti əməkdaşları bu turnirdə böyük həvəslə iştirak edir və gərgin mübarizə şəraitində öz bacarıqlarını sınayırlar.

Turnirin qalibi Ə.Həsənov ulu öndərin xatirəsinə həsr olunmuş ənənəvi şahmat turnirinin üçüncü dəfə qalibi olması ilə fəxr etdiyini deyərək, belə tədbirlərin şahmatın təbliği baxımından əhəmiyyətli olduğunu qeyd etmişdir. Tədbirin qonağı, beynəlxalq qrossmeyster Rauf Hacılı qalibləri təbrik edərək Vergilər Nazirliyinin bu sahədə təşəbbüskarlığını yüksək qiymətləndirdiyini demişdir. Onun sözlərinə görə, belə tədbirlərin keçirilməsi cəmiyyətdə şahmata marağı daha da gücləndirərək onun kütləviləşməsini təmin edir.

Tədbirin sonunda beynəlxalq qrossmeyster Rauf Hacılı yarış iştirakçıları ilə eynivaxtlı oyun seansı keçirmişdir.

**S.MUSTAFAYEV**

krossvord



**Soldan sağa:** 4.Adalar silsiləsi; 6.Qərb yarımkürəsində Atlantik okeanına daxil olan tropik dəniz; 9.Hər hansı hərəkət və başlanğıc üçün əsas; 10.Yunan mifologiyasında dan şəfəqi ilahəsi; 14.Dahi alman bəstəkarı və orqan musiqiçisi, Barokko dövrünün ən görkəmli nümayəndəsi; 15.Sınar, əyilməz; 17.Maye və bərk cisimlərin həcmini ölçən silindr formalı cihaz; 18.Məşhur İtaliya opera müğənnisi, tenor; 1960-cı illərin məşhur ingilis musiqi qrupu; 20. Rəngi ağa çalan nəcib metal; 22.Azərbaycan bəstəkarı, respublikanın xalq artisti (adı); 27.Ruhi rahatlıq və sakitlik vəziyyəti. Bəzi qədim yunan filosoflarının fikrincə, bu vəziyyətə mütəfəkkir nail ola bilir; 29.1970-1982-ci illərdə fəaliyyət göstərmiş İsveç musiqi kvarteti; 30.Başqa adamlara təmənnasız xidmət göstərilməsindən, onların xoşbəxtliyi naminə öz şəxsi mənafeyini qurban verməkdən ibarət əxlaqi prinsip; 31.Şərqdən Asiya, şimaldan Avropa, cənubdan Afrika qitəsi ilə əhatə olunmuş dəniz.

**Yuxarıdan aşağı:** 1.Dəyişən cərəyanın gərginliyini artırıb-azaldan element; 2.Yunan mifologiyasında Olimpin baş allahı, ildırımın və şimşəyin yaradıcısı; 3.Fəxrəddin Manafovun «Təhminə» filmində canlandırdığı obraz; 5.İnsan sağlamlığının rəhni hesab edilən fəaliyyət; 7.XVIII-XIX əsrlərdə yaşamış dahi alman bəstəkarı; 8.Yunan mifologiyasında evlilik və doğum ilahəsi; 11.Humanitar elmlərdən biri; 12.Məşhur İtaliya opera müğənnisi Enriko...; 13.Simli musiqi aləti; 15.Kimyəvi elementlərin dövri sistemində 78-ci element; 16.Ürəkdə qan dövranı ilə əlaqədar arteriya divarlarının təkanvari rəqsi; 21.Ən toksik, ağır metallardan biri; 23.Hər tərəfdən su ilə əhatə olunmuş quru sahəsi; 24.Pişiklər fəsiləsinin panter cinsinə aid heyvan növü; 25.Simli musiqi aləti; 26.Şərq əlbəyaxa döyüş növlərinin əksəriyyətində əvvəlcədən bir neçə nəfərə qarşı hazırlanmış formal hərəkətlərdən ibarət döyüş forması; 28.Azərbaycan musiqili komediya sənətində xidmətləri olmuş bəstəkarın adı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa**: 1.Valentina; 7.Tümən; 9.Artemida; 11.Domino; 12.Braziliya; 13.Defo; 14.QAYA; 16.Xokkey; 18.Gülüstan; 19.Mozalan; 20.Endşpil. **Yuxarıdan aşağı:** 2.Tanqo; 3.Qobustan; 4.Palermo; 5.İprit; 6.Faradey; 8.Gənclik; 10.Ayran; 12.Baykal; 15.Volqa; 17.Yeddi.

Vergilər Nazirliyinin kollektivi
Tədris Mərkəzinin Elmi-tədqiqat bölməsinin
elmi işçisi Gülnaz Rəsulovaya, əzizi
**İlkinin**
vaxtsız vəfatından kədərləndiyini bildirir və
dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi 2 saylı ƏVİ-nin
şöbə rəisi Şahmar Sadıqova, əzizi
**Hafiz müəllimin**
vəfatından kədərləndiyini bildirir və
dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi 2 saylı ƏVİ-nin
əməkdaşı Xanlar Əhmədova, atası
**Əhməd kişinin**
vəfatından kədərləndiyini bildirir və
dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h 12-12258-1
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.

**Ünvan:** AZ 1073, Bakı ş., Landau küç.16

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.

**Tiraj: 16000**

# Klassisizm heykəltəraşlığı

şedevrlər



Etyen Moris Falkonye. «Tunc atlı».

Avropanın iri dövlətlərində, həmçinin Fransada mütləq hakimiyyətin bərqərar olduğu şəraitdə fransız incəsənətinin novator ruhu parlaq şəkildə nəzərə çarpmağa başladı. XVII əsrdə mərkəzləşdirilmiş vahid milli dövlət yaratmaq üçün feodal pərakəndəliyinin qalıqlarına qarşı mübarizədə Fransa burjuaziyası öz qüvvələrini Kral hakimiyyəti ilə birləşdirmişdi. Klassisizm - məhz mütləq monarxiya dövrünün məhsuludur. Mütləq monarxiyanın mədəni siyasəti və onun estetik doktrinası olan klassisizm sinfi xarakter daşıyırdı. XVII əsrin ikinci yarısında klassisizm mütləqiyyətin şöhrətlənməsinə xidmət edən rəsmi saray üslubuna çevrildi. Nəhəng kral iqamətgahının yerləşdiyi sarayların zallarını (xüsusən Versal), park xiyabanlarını bəzəyən heykəltəraşlıqdan klassik cidilik və harmoniklikdən daha çox təntənə və dəbdəbə tələb olunurdu. İtalyan barokkosunun ənənələri, xüsusən də Lorenso Berninin yaradıcılığı dəbdəbəli və pafoslu üslubun yayılmasına təkan verdi. Romada Berninin şagirdi olan heykəltəraş Fransua Jirardon ömrünün çox hissəsini Şarl Lebren və Andre Lenotorla birgə Versal parkının tərtibatına həsr etdi. Onun bütün əsərləri texniki cəhətdən yüksək səviyyədə olub, klassisizm və barokko cizgilərini birləşdirir. O dövrdə yaradılan heykəllər böyük şəhərlərdəki iri parklarda nümayiş etdirilirdi. Klassisizm üslubunda salınmış meydanlardan biri Parisdəki Vandom meydanıdır. Meydanın mərkəzində XIV Lüdovikin atlı heykəli ucalırdı. 1683-cü ildə Vandom meydanında Jirardonun yaratdığı XIV Lüdovikin monumental atlı heykəli 1789-1799-cu illərdə fransız inqilabı dövründə məhv oldu. Bu heykəl Roma imperatoru Mark Avrelinin heykəlini xatırladırdı.

Antuan Kuazevoks da Jirardon kimi Versalda çox işləmiş, döyüş zalı və güzgülü qalereyanın tərtibatı ilə məşğul olmuşdur. «XIV Lüdovikin Reyn çayından keçməsi» əsərində heykəltəraş kralın fiqurunu digərlərinə nisbətən xeyli qabarıq düzəldib, halbuki digər fiqurlar səth üzərində güclə seçilir.

Pyer Püje o dövrün ən istedadlı sənətkarı - rəssam, memar, heykəltəraş idi.

«Makedoniyalı İskəndər və Diogen» (1692), «Milon Krotonski» (1682) və s. onun məşhur əsərlərindəndir. Beləliklə, XVII əsr fransız hekəltəraşlığı özündə klassisizm və barokko cizgilərini birləşdirərək bu üslubların dərin daxili qohumluğunu üzə çıxarır. Zahirən bir-birinin əksi kimi görünən bu üslublar, əslində, eyni məqsədə çatmağın müxtəlif yollarıdır.

# Siqaret üçün sağlamlıq vergisi

tam ciddi

Siqaretin ziyanları barədə mətbuatda çoxlu yazılar nəşr edilir, bu zərərli vərdişin tərgidilməsi üçün bütün dünyada müxtəlif səpkili təbliğat işləri aparılır. Bu istiqamətdə Türkiyə hökuməti daha sərt addım atmağı qərara almışdır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi və Sosial Təhlükəsizlik Qurumunun birlikdə hazırlayıb təqdim etdiyi «Siqarətə qarşı sağlamlıq vergisi» indi qardaş ölkədə ən çox müzakirə edilən mövzulardandır. Bu verginin tərəfdarları onun nəticələrinə nikbinliklə baxırlar. Proqnozlara görə, siqaretin səbəb olduğu səhiyyə xərclərini məhz bu vergi hesabına örtmək mümkün olacaq. İldə büdcəyə 4,1 milyard lirə gəlirəcəyi gözlənilən bu vergi sayəsində 900 min insanın siqareti atacağı, 700 min gəncin siqaret çəkməyə başlamasının, 500 min insanın vaxtsız ölümünün qarşısının alınacağı ehtimal edilir. Qeyd edək ki, bundan sonra Türkiyədə bir qutu siqaretə 1,5 lirə sağlamlıq vergisi qoyulacaq və bu, hazırda mövcud olan vergilərə daxil edilməyərək əlavə vergi kimi tətbiq ediləcək.


HEYDAR ALIYEV ANNIVERSARY TOUR of Azerbaijan 2012

**Hörmətli sürücülər!**
**Xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velosiped turu ilə əlaqədar olaraq:**

**May ayının 9-da səhər saat 9.00-dan 12.00-dək**
*"Azadlıq meydanı - Nobel prospekti - Zığ şosesi",* **saat 12.00-dan 15.00-dək** *"Zığ şosesi - Nobel prospekti - Azadlıq meydanı - Neftçilər prospekti - Azneft meydanı"* marşrutu üzrə nəqliyyatın hərəkəti müvəqqəti olaraq dayandırılacaq.

**May ayının 10-da səhər saat 10.00-dan 16.00-dək**
**Bakı - Qobustan - Şamaxı - İsmayıllı** *(şəhərə giriş - Nizami Gəncəvi küçəsi - "Çıraq" otelin qarşısı)* istiqamətində nəqliyyatın hərəkəti müvəqqəti olaraq məhdudlaşdırılacaq.

**May ayının 11-də səhər saat 10.00-dan 16.00-dək**
*"Qəbələ (rayon icra hakimiyyətinin qarşısı - Azpetrol dairəsi - şəhərdən çıxış)* **- Oğuz - Şəki** *(şəhərə giriş - Nəriman Nərimanov küçəsi - Aydın Məmmədov küçəsi - Sabit Rəhman küçəsi - Məmməd Əmin Rəsulzadə prospekti - şəhərdən çıxış)* **- Oğuz - Qəbələ** *(Azpetrol dairəsi - rayon icra hakimiyyətinin qarşısı)"* marşrutu üzrə nəqliyyatın hərəkəti müvəqqəti olaraq məhdudlaşdırılacaq.

**May ayının 12-də səhər saat 10.00-dan 15.00-dək**
*"İsmayıllı ("Çıraq" hotelinin qarşısı - çay körpüsü - şəhərdən çıxış) - Qəbələ (Çay körpüsü - Ana abidəsi - Azpetrol - rayon icra hakimiyyəti - Heydər Əliyev prospekti - magistral yol - Çay körpüsü)* marşrutu üzrə nəqliyyatın hərəkəti müvəqqəti olaraq məhdudlaşdırılacaq.

**May ayının 13-də səhər saat 09.00-dan 14.00-dək**
*"Azadlıq meydanı - Neftçilər prospekti - Azneft meydanı - Niyazi küçəsi - Sona Vəliyeva küçəsi - Teymur Elçin küçəsi - Mehdi Hüseyn küçəsi - Parlament prospekti - Hüseyn Cavid prospekti - İnşaatçılar prospekti - Bakıxanov küçəsi - Səməd Vurğun küçəsi - Şəmsi Bədəlbəyli küçəsi - Bülbül prospekti - Neftçilər prospekti - Azadlıq meydanı"* marşrutu üzrə nəqliyyatın hərəkəti müvəqqəti olaraq dayandırılacaq.

**GÖSTƏRİLƏN VAXTLARDA HƏMİN İSTİQAMƏTLƏRƏ ALTERNATİV YOLLARDAN İSTİFADƏ OLUNMASINI XAHİŞ EDİRİK**


# Qələbə günü

söz vaxtına çəkər

İkinci Dünya müharibəsindən sonra ideoloji cərəyan kimi meydana gələn və getdikcə Avropaya yayılan faşizm XX əsrin ən amansız bəşəri fəlakətlərindən birinə çevrilmiş, insanlığı yeni bir dünya müharibəsinə sürükləmişdi. Faşizmin və ya milli sosializmin ideya əsasını ifrat antidemokratiya, irqçilik, şovinizm, sosial darvinizm təşkil edirdi. O, həm fiziki, həm də mənəvi mənada bütün fərdlərin taleyini həll etmək məsuliyyətini öz üzərinə götürən və «milli birlikə» hər hansı müdaxiləni qəti şəkildə aradan qaldıran totalitar dövlət quruluşunu ilahiləşdirir, zora güvənən qəddar, amansız hakimiyyəti təbliğ edirdi.

SSRİ-nin, o cümlədən Azərbaycanın faşizmə qarşı ölüm-dirim savaşı apardığı Böyük Vətən müharibəsi illərində (1941-1945) Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərmişdir. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılmışdı. 1941-1945-ci illərdə Azərbaycanın 600 mindən çox igid oğlu və qızı cəbhəyə yollanmışdı. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçmişdir. Həmvətənlərimizin təqribən 130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfəri «Şöhrət» ordeninin hər üç dərəcəsi ilə təltif edilmişdir. Azərbaycandan olan 170 min əsgər və zabit SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşdur.

İqtisadiyyatı cəbhəyə xidmət istiqamətinə yönəltmək məqsədi ilə respublikada böyük işlər aparılırdı. Qısa müddətdə Bakı döyüşən ordu üçün silahsursat cəbbəxanasına çevrilmişdi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz qəhrəmanlıq və fədakarlıq nümunəsi göstərir, cəbhəni və sənayeni yanacaqla təmin edirdilər.

Müharibə illərində akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradılmışdı. Neftçilərimizin fədakar əməyi sayəsində Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə edilmiş, 1941-ci ildə 23,5 milyon ton «qara qızıl» çıxarılmışdı. Bu, SSRİ-də çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi. Bütövlükdə müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları vermişdilər. İnamla demək olar ki, Bakı nefti faşizm üzərində qələbənin əsas amillərindən biri olmuşdur. Təkcə onu demək kifayətdir ki, hər beş təyyarədən dördü, hər beş tankdan dördü, hər beş avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyirdi. Böyük Vətən müharibəsi Azərbaycan xalqının kütləvi qəhrəmanlıq və fədakarlığını nümayiş etdirdi.

Bəşəriyyətin XX əsrin əvvəllərində üzləşdiyi qəddar faşizm bəlası ilə Azərbaycan xalqı XX əsrin sonlarında bir daha üzləşdi - işğalın ildönümünü qeyd etdiyimiz şəhər və kəndlərimiz, yurdundan perik düşən insanlarımızın əzabları erməni faşizminin tarixin sinəsində açdığı yaradır. Lakin bir həqiqət var ki, insanlara ölüm və fəlakət gətirən hər cür antibəşəri istəyin özü, onu həyata keçirənlər məhvə məhkumdur. Şair demiş: «Zülüm də, zalım da var ola bilməz!».

# Boynu sürahi kimi

maraqlı

Azərbaycan ədəbiyyatında qadın gözəlliyinin ən mühüm şərtlərindən biri boynun uzunluğu və incəliyi olmuşdur: klassik şeirimiz, deməк olar ki, bütün nümayəndələri gözəl qadının boynunu sürahiyə bənzətmişlər. Lakin heç bir tarixi mənbədə qadınların öz boynunu uzatmaq üçün hər hansı üsul və ya vasitədən istifadə etməsi barədə məlumata rast gəlmirik: bu keyfiyyət insana yaradıcı qüvvə tərəfindən bağışlanır. Ancaq elə ölkələr var ki, qadınların boynunun uzadılması üçün xüsusi üsullardan istifadə olunur...



Şimali Tailanddakı Padaunq qəbiləsinin qadınları dünyada ən uzun boynu olan insanlar kimi məşhurdurlar. Qəbilə ənənələrinə uyğun olaraq, qızlar ərgənlik çağına çatmazdan öncə boyunlarının ətrafını əhatə edən dəmir halqalar taxmağa məcburdurlar. İllər keçdikcə bu halqalara yeniləri əlavə edilir. Padaunq qadınları, sadəcə, başlanğıcda narahatlıq hiss etdiklərini deyirlər. Onlarda qulağın altı ilə ən aşağıdakı halqanın arasındakı məsafə təxminən 25 santimetrə çatır ki, bu da normal bir qadın boyundan təxminən iki dəfə uzundur. İndiyədək qeydə alınmış ən uzun boyun isə 40 santimetr olmuşdur.

# Çiyələk

sağlam həyat tərzi

Dadı, ətri və rəngi şirin duyğular oyadan çiyələk həm də sağlam həyat tərzinin əvəzedilməz hissəsi sayılır, tərkibindəki dəmir, yod, kalsium, sink, marqanes, fosfor kimi maddələrlə insan orqanizmi üçün ən zəngin mineral mənbələrindən hesab olunur. Bundan başqa, çiyələk C və B5 də daxil olmaqla tam bir vitamin kompleksi «anbarı»dır». Bu giləmeyvə həzm sisteminə yaxşı təsir göstərir, iştahanı yaxşılaşdırır, tərqovucu xüsusiyyətlərə malikdir. Müntəzəm yeyildikdə orqanizmdə təmizlənmə aparır, qocalma prosesini ləngidir, piylənmənin qarşısını alır. Xalq təbabətində keçmiş zamanlardan bəri çiyələkdən qan azlığının, hipertoniyanın, aterosklerozun müalicəsində istifadə olunmaqdadır. Vitamin çatışmazlığı dövrlərində, xüsusən ilin indiki vaxtında çiyələyin əvəzi yoxdur. O, müxtəlif bağırsaq infeksiyalarının törədicilərinin qarşısını alır, pnevmokok, stafilokok və qrip viruslarının qənimidir. Çiyələk zob xəstəliyinə qarşı faydalı hesab olunur - orqanizmdə yod mübadiləsinə müsbət təsir göstərir.

Çiyələyin faydalarından danışarkən, diqqət yetirilməli olan bəzi məqamları da unutmaq olmaz. Allergiyası olan adamların çiyələkdən ehtiyatla istifadə etməsi məsləhətdir. Çiyələk mədə şirəsinin ifrazına, uzunmüddətli mədə və böyrək sancılarına, eləcə də apendisitə əks təsir göstərə bilər.



**Çiyələk şərbəti**

Çiyələk təmizlənib, yuyulur. Suyunun süzülməsi üçün ən azı 1 saat süzgəcdən keçirilir.
Qazana qoyulub, üzərinə şəkər tökülür. Qazanın qapağını örtüb, ən azı iki gün saxlamaq lazımdır.
Şəkər tam əriyəndən sonra çiyələk şərbəti bankalara süzülür, qapağı möhkəm bağlanaraq soyuducuda 10-15 gün saxlanılır.
Süfrəyə verilən vaxt stəkanın üçdəbirinə şərbət süzülür, üçdəikisi isə soyuq su ilə tamamlanır.

**Müdriklər deyib ki...**

*«Yaxasını işdən kənara çəkən veyil insan lap əqrəbsiz saat kimidir».*
*Fenimor Kuper (1789-1851)*



Səhifəni **Məti OSMANOĞLU** aparır | m.bayramli@taxes.gov.az